# “QALA HƏYAT” SIĞORTA ŞİRKƏTİ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
# 2025-ci il üzrə MALİYYƏ HESABATI

**-2026-**

Baku AZ1131 Azerbaijan Republic
Surakhani Yeni Guneshli setl AB
house 8 apartm 27
Phone. +(994) 50 625 03 75
e-mail: iauditcllc@gmail.com

"İATC" Məhdud Məsuliyyətli Cəmiyyəti VÖEN: 1905410441 AR Auditorlar Palatası tərəfindən verilmiş 16 yanvar 2023-cü il tarixli AT/261 №-li İcazə

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**Rəy** FgJdYmDeRd **Tarix 19 mart 2026-cı il**

Biz « QALA HƏYAT SIĞORTA » ASC-nin 31 dekabr 2025-ci il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.
Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**
Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**
Əsas audit məsələləri bizim peşəkar mühakimənizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tətib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**"İATC" MMC-nin direktor auditoru** | **Şükürov Rüfət Kamil oğlu**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti İATC Limited Liability Company Republic of Azerbaijan

MÜNDƏRİCAT


| | |
|---|---|
| Maliyyə hesabatlarının hazırlanması və təsdiqlənməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat | 2 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 3 |
| Mənfəət və zərər haqqında hesabat | 4 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 5 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 6 |
| Maliyyə hesabatlarına şərhlər və izahedici qeydlər | 7-36 |

## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik **«QALA HƏYAT» SIĞORTA ŞİRKƏTİ ASC-nin** 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə başa çatan il üzrə maliyyə nəticələri, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə;

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

Cəmiyyətin daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini və təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.
Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə başa çatan il üzrə maliyyə hesabatları 12.03.2026-cı il tarixində rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

**Cəmiyyət tərəfindən:**

***İdarə Heyətinin Sədri***

*Talıbov Anar Talıb oğlu*

12 mart 2026-cı il

***Baş mühasib***

*Həsənəliyev Tural Eldar oğlu*

## "QALA HƏYAT" SIĞORTA ŞİRKƏTİ ASC-nin
## 31 Dekabr 2025-ci il tarixinə
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 5 | 1,415,285.74 | 1,217,558.01 |
| Qeyri-maddi aktivlər | 6 | 306,631.25 | 275,803.56 |
| Uzunmüddətli maliyyə aktivləri | 7 | 2,228,361.37 | 20,121,593.22 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 8 | 5,025,000.00 | 3,950,000.00 |
| Sair aktivlər | 9 | 4,142,632.95 | 4,141,432.95 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **13,117,911.31** | **29,706,387.74** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | | | |
| Debitor borcları: | 10 | 2,618,620.97 | 2,016,761.48 |
| Qısamüddətli maliyyə aktivləri | 11 | 18,838,861.38 | 4,510,009.63 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı: | 12 | 365,237.15 | 267,261.23 |
| Sair qısamüddətli aktivlər | 14 | 2,224.41 | 2,484.30 |
| Pul vəsaitləri və onların ekvivalentləri: | 13 | 20,752,680.24 | 7,468,579.15 |
| Sair aktivlər | 15 | 272,792.74 | 272,491.10 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **42,850,416.89** | **14,537,586.89** |
| **CƏMİ AKTİVLƏR** | | **55,968,328.20** | **44,243,974.63** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 13,041,600.00 | 13,041,600.00 |
| Emissiya gəliri | | | |
| Kapital ehtiyatları | | 2,525,000.00 | 1,450,000.00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 16,202,400.15 | 11,142,804.76 |
| **CƏMİ KAPİTAL** | | **31,769,000.15** | **25,634,404.76** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Sığorta ehtiyatları | 16 | 18,359,219.89 | 14,047,042.85 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 17 | 80,784.64 | 109,625.27 |
| Kreditor borcları | | | |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | | | |
| Sair öhdəliklər | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **18,440,004.53** | **14,156,668.12** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Kreditor borcları | 18 | 2,418,975.26 | 1,456,564.29 |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | | | |
| Sair qısamüddətli öhdəliklər | | | |
| Sair öhdəliklər | 19 | 3,340,348.26 | 2,996,337.46 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **5,759,323.52** | **4,452,901.75** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **24,199,328.05** | **18,609,569.87** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **55,968,328.20** | **44,243,974.63** |

***İdarə Heyətinin Sədri***
*Talıbov Anar Talıb oğlu*

***Baş mühasib***
*Həsənəliyev Tural Eldar oğlu*

12 mart 2026-cı il

**"QALA HƏYAT" SIĞORTA ŞİRKƏTİ ASC-nin**
**31 Dekabr 2025-ci il tarixinə**

## MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

| *Azərbaycan manatı ilə* | Qeyd | 2025-ci il | 2024-cü il |
|---|---|---|---|
| **Gəlirlər** | | | |
| Əsas əməliyyat gəliri | 20 | 30,875,597.41 | 25,563,590.70 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət/mənfi) | | (4,214,201.12) | 25,145.29 |
| İnvestisiya gəlirləri üzrə | | 2,316,940.74 | 1,574,093.94 |
| Subroqasiya gəlirləri | | | |
| Sair gəlirlər | | 159,388.64 | 499,436.53 |
| **Ümumi gəlirlər** | | **29,137,725.67** | **27,662,266.46** |
| **Xərclər** | | | |
| Əsas əməliyyat xərcləri | 21 | (4,291,967.52) | (5,888,862.51) |
| İşlərin aparılması xərcləri | 22 | (12,182,980.84) | (11,332,095.54) |
| Sair xərclər | | (88,283.07) | (44,126.72) |
| **Ümumi xərclər** | | **(16,563,231.43)** | **(17,265,084.77)** |
| **Maliyyə mənfəəti (zərəri)** | | **12,574,494.24** | **10,397,181.69** |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **12,574,494.24** | **10,397,181.69** |
| Mənfəət vergisi | 23 | **2,514,898.85** | **2,079,436.34** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 23 | **10,059,595.39** | **8,317,745.35** |

***İdarə Heyətinin Sədri***
*Talıbov Anar Talıb oğlu*

***Baş mühasib***
*Həsənəliyev Tural Eldar oğlu*

AZƏRBAYCAN RESPUBLİKASI "Qala Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti QALA Həyat Sığorta şirkəti "Qala Life" Insurance Company Open Joint Stock Company AZERBAIJAN REPUBLIC

12 mart 2026-cı il

## "QALA HƏYAT" SIĞORTA ŞİRKƏTİ ASC-nin
## 31 Dekabr 2025-ci il tarixinə
## KAPITALDA DƏYIŞIKLIKLƏR HAQQINDA HESABAT

| *Azərbaycan manatı ilə* | Qeyd | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş iş mənfəət | Kapital ehtiyatları | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə qalıq** | 4 | **13,041,600.00** | **12,485,508.68** | **0.00** | **25,527,108.68** |
| Hesabat dövründə xalis mənfəət(zərər) | | | 8,317,745.35 | | **8,317,745.35** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | 1,450,000.00 | **1,450,000.00** |
| Emissiya gəliri | | | | | - |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | (9,660,449.27) | | **(9,660,449.27)** |
| | | | | | - |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | 4 | **13,041,600.00** | **11,142,804.76** | **1,450,000.00** | **25,634,404.76** |
| **1 yanvar 2025-ci il tarixinə qalıq** | 4 | **13,041,600.00** | **11,142,804.76** | **1,450,000.00** | **25,634,404.76** |
| Hesabat dövründə xalis mənfəət(zərər) | | | 10,059,595.39 | | **10,059,595.39** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | 1,075,000.00 | **1,075,000.00** |
| Emissiya gəliri | | | | | - |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi(dividendlər) | | | (5,000,000.00) | | **(5,000,000.00)** |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | 4 | **13,041,600.00** | **16,202,400.15** | **2,525,000.00** | **31,769,000.15** |

***İdarə Heyətinin Sədri***
*Talıbov Anar Talıb oğlu*

***Baş mühasib***
*Həsənəliyev Tural Eldar oğlu*

12 mart 2026-cı il

**"QALA HƏYAT" SIĞORTA ŞİRKƏTİ ASC-nin**
**31 Dekabr 2025-ci il tarixinə**

# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*Azərbaycan manatı ilə*

| | Qeyd | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Yığılmış ümumi sığorta haqqları | | 29,707,311.51 | 24,594,169.17 |
| Ötürülmüş sığorta haqqları | | (685,085.06) | (415,634.37) |
| Verilmiş sığorta ödənişləri | | (2,606,710.41) | (4,548,326.71) |
| Alınmış haqq və komissiyalar | | | |
| Ödənilmiş haqq və komissiyalar | | (4,001,962.74) | (3,172,519.31) |
| Ödənilmiş ümumi və inzibati xərclər | | (7,094,691.31) | (7,112,280.70) |
| Ödənilmiş mənfəət vergisi | | (2,130,000.00) | (1,970,000.00) |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti:** | | **13,188,861.99** | **7,375,408.08** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Alınmış faiz gəliri (depositlər üzrə) | | 446,765.93 | 127,595.17 |
| Alınmış faiz gəliri (qiymətli kağızlar üzrə) | | 1,676,886.72 | 1,111,523.64 |
| Qiymətli kağızların alınması | | (13,817,072.24) | (20,649,012.91) |
| Qiymətli kağızların satılması/geri qaytarılması | | 17,534,384.23 | 22,740,751.63 |
| Banklarda yerləşdirilmiş depositlər | | - | |
| Banklardan qaytarılmış depositlər | | - | |
| Əsas vəsaitlərin alınması | | (498,848.04) | (447,236.00) |
| Əsas vəsaitlərin satılması | | - | 10,200.00 |
| Qeyri-maddi aktivlərin alınması | | (246,877.48) | (88,718.79) |
| Qeyri-maddi aktivlərin satılması | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **5,095,239.12** | **2,805,102.74** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Nizamnamə kapitalının artırılması | | | |
| Ödənilmiş dividendlər | | (5,000,000.02) | (9,660,449.27) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentinə valyuta məzənnəsi dəyişməsinin təsiri | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(5,000,000.02)** | **(9,660,449.27)** |
| **Pul vəsaitlərinin həcminin xalis artımı/azalması** | | **13,284,101.09** | **520,061.55** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 13 | **7,468,579.15** | **6,948,517.60** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 13 | **20,752,680.24** | **7,468,579.15** |

***İdarə Heyətinin Sədri***
*Talıbov Anar Talıb oğlu*

***Baş mühasib***
*Həsənəliyev Tural Eldar oğlu*

12 mart 2026-cı il

AZƏRBAYCAN RESPUBLİKASI "Qala Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti QALA Həyat Sığorta şirkəti Qala Life Insurance Company Open Joint Stock Company AZERBAIJAN REPUBLIC

**"QALA HƏYAT" SIĞORTA ŞİRKƏTİ ASC-nin**

**31 dekabr 2025-ci il tarixinə Uçot Siyasəti və Digər İzahedici Qeydlərin Qısa Xülasəsi**

## 1. CƏMİYYƏT HAQQINDA

"QALA HƏYAT" SIĞORTA ŞİRKƏTİ Açıq Səhmdar Cəmiyyəti ("Şirkət") 07.07.2008-ci il tarixində 2001269471 VÖEN nömrəsi ilə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınaraq təsis edilmişdir. Şirkət əsasən həyat sığortası xidmətləri göstərməklə məşğuldur. Şirkət Azərbaycan Respublikasının Maliyyə Bazarına Nəzarət orqanı tərəfindən verilmiş sığorta lisenziyası əsasında fəaliyyət göstərir.

Şirkətin qeydiyyatdan keçmiş ofisi, AZ1065, Bakı şəhəri Yasamal rayonu, İzmir, ev 5A.
Təsisçilər və nizamnamə kapitalında mayaların miqdarı:
"AZRE TƏKRARSIĞORTA" ASC-50%
İbrahimov Kamal Mirsahib oğlu-10%
Fərəcov İftixar Səftər oğlu-7.193%
Səfərov Vəlihəd Məmmədağa oğlu-4.0351%
Hətəmov Namiq İmdat oğlu-7.193%
Yusifov Mehman Oqtay oğlu-7.193%
Tağıyev Əbülfət Məzahir oğlu-7.193%
Mirhadıyev Cavid Sənan oğlu-7.193%

Qanuni Təmsilçi: Talıbov Anar Talıb oğlu

## 2. ŞİRKƏTİN ƏMƏLİYYAT MÜHİTİ

Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliyini, inklüzivliyini və əhalinin sosial rifahının artırılmasının təmin edilməsi məqsədilə biznes və investisiya mühitinin daha da inkişafının, sahibkarlarının maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, dövlət-sahibkar münasibətlərinin yeni çağırışlara uyğun olaraq təkmilləşdirilməsi istiqamətində hədəflənmiş məqsədyönlü islahatlar davam edir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinə əsasən aparılan islahatlar və həyata keçirilən tədbirlər nəticəsində bir sıra nailiyyətlər əldə edilmiş, mütərəqqi hüquqi baza formalaşmış, 2019-cu ildə ölkədə makroiqtisadi sabitlik və dayanıqlığın əsasları yaradılmışdır. Tədiyə balansı tarazlaşmış, valyuta ehtiyatlarına təzyiq azalmış, milli valyutanın xarici valyutalara qarşı məzənnəsi və inflyasiya gözləntiləri sabitləşmişdir

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 3 il ərzində yerli sığorta bazarında 60 faizlik artım qeydə alınıb. Yerli sığorta bazarında artım dinamikası hədəf minimumunu üstələyərək 2023-cü ildə 18 faiz, 2024-cü ildə isə 20 faiz, 2025-ci ildə isə 22 faiz artırmışdır. Bu uğurun əsası milli iqtisadiyyatımız üçün mühüm strateji önəm daşıyan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin qəbul edilməsi ilə qoyulub.

Ölkədə sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə 2023 və 2024-cü ildə vergi qanunvericiliyinə bir neçə istiqamətdə çox mühüm dəyişikliklər edilmişdir. Bunlar sahibkarlığın dəstəklənməsi, vergidən yayınmanın və "kölgə iqtisadiyyatının" miqyasının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi kimi istiqamətləri əhatə edir. 2024-cü ildə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərə habelə həyatın yığım sığortası sahəsində vergi və sosial sığorta üzrə güzəştlərin əhatə dairəsinin dəyişdirilməsi də daxildir.

Ötən il dünyanın üç aparıcı reytinq agentliyi – "Standard&Poor's" (S&P), "Fitch Ratings" və "Moody's" Azərbaycanın kredit reytinqini nisbətən yüksək səviyyədə təsdiqləmiş, güclü fiskal ehtiyatları və xarici balansı əsas üstünlüklər kimi göstəriblər. "Moody's" iqtisadiyyatın diversifikasiyası ilə bağlı optimizmi vurğulayaraq reytinq üzrə proqnozu ("Baa3", "müsbət"),"Fitch Ratings" reytinqi ("BBB-", "sabit"), S&P isə reytinqlər üzrə sabit proqnozunu ("BB+/B", "sabit") saxlamışdır.Yüksəliş daha yaxşı maliyyə idarəetməsi və pandemiyadan sonrakı dövrdə gələcək pozulmaları qəbul etmək qabiliyyəti ilə ifadə olunan son illərdə öz əksini tapmış iqtisadi siyasətin effektivliyini əks etdirir. İqtisadiyyatın bərpası, yüksək neft və qaz qiymətləri fonunda ehtiyatlı fiskal idarəetmə sayəsində maliyyə göstəriciləri güclü olaraq qalır və gözləniləndən daha sürətlə yaxşılaşır.
Cəmiyyət rəhbərliyi mövcud mühitdə bazarda davamlı inkişafa malik olmaq üçün idarəetmənin təkmilləşdirilməsi, müasir informasiya texnologiyası proqram təminatının reallaşdırılması, risklərin idarəedilməsi kimi məsələləri diqqətdə saxlayır. Eyni zamanda, biznesin müasir təşkili və idarəedilməsi, xidmət keyfiyyəti, marketinq araşdırmaları ilə bağlı layihələrin icrasını da daim önə çəkir. Cəmiyyətdə maliyyə-investisiya fəaliyyətini genişləndirmək, kapitalı artırmaq və dayanıqlığı gücləndirmək, qanunvericilik tələblərinə ciddi yanaşmaq, habelə elektron uçot və hesabat sistemlərini müasirləşdirmək, şəffaflıq və ədalətlilik kimi məsələləri də prioritet istiqamətlərdən sayır və zəruri hesab edilən tədbirlər görülür.

**Uyğunluq haqqında bəyanat**

Cəmiyyətin maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) əsasında hazırlanmışdır. Cəmiyyət öz mühasibat qeydlərini Azərbaycan Respublikasında qüvvədə olan qanunvericilik əsasında həyata keçirir. Bu Cəmiyyətin maliyyə hesabatları həmin mühasibat qeydləri əsasında hazırlanmışdır və MHBS-a bütün əhəmiyyətli aspektlər baxımından uyğunlaşdırmaq üçün düzəlişlər edilmişdir.

**Təqdimatın əsasları**

Cəmiyyətin maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası ("BMUSŞ") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Azərbaycan Respublikasının sığorta fəaliyyəti üçün nəzərdə tutulmuş qanunvericilik əsasında hazırlanmışdır.

Qeyd olunan maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot prinsipləri aşağıda göstərilir. Həmin prinsiplər, başqa cür göstərilmədiyi hallarda təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

## 3.MÜHÜM MÜHASİBAT UÇOTU SİYASƏTLƏRİ

**Fasiləsizlik prinsipi**

Bu maliyyə hesabatları Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Cəmiyyətin yaxın gələcəkdə ləğv olunmasına, habelə fəaliyyətinin dayandırılmasına və ya Azərbaycan Respublikasının Qanunları və normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi fərdi maliyyə hesabatları standartları, Rəhbərlik tərəfindən Cəmiyyətin davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələlərin və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Davamlılıq prinsipi təxminlərin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

**Təqdimatın digər əsasları**

Bu maliyyə hesabatları Cəmiyyətin funksional valyutası olan Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Fərdi maliyyə hesabatları tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Fərdi maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və hesabatlara MHBS-yə uyğunlaşdırılmaq məqsədilə düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin fərdi maliyyə hesabatlarındakı bəndlərə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləndirilmələr aiddir.

**Əməliyyat valyutası**

Cəmiyyətin maliyyə hesabatlarına daxil edilən maddələr Cəmiyyətin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitdəki valyutanı ("əməliyyat valyutası") istifadə etməklə ölçülür. Cəmiyyətin əməliyyat valyutası AZN-dir. Cəmiyyətin maliyyə hesabatlarının təqdim olunduğu valyuta AZN-dir. Azərbaycan Respublikası Mərkəzi Bankının qaydalarına uyğun olaraq bu maliyyə hesabatlarında yerli valyuta təqdimat valyutası kimi istifadə olunur.

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız uçotda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanuni hüquq mövcud olduqda və xalis məbləğ əsasında hesablaşmalar aparılması, yaxud da eyni vaxtda aktivlərin satılması və öhdəliyin yerinə yetirilməsi nəzərdə tutulduqda bir-birinə qarşı əvəzləşdirilir, xalis məbləği isə maliyyə vəziyyəti haqqında hesabatda bildirilir. Hər hansı mühasibat uçotu standartı və ya şərhi ilə tələb olunmayana və ya icazə verilməyənədək və Cəmiyyətin mühasibat uçotu qaydalarında konkret göstərilməyənə qədər gəlir və xərc mənfəət və ya zərər haqqında bir-birinə qarşı əvəzləşdirilmir.

**Maliyyə aktivləri**

Maliyyə aktivləri aşağıdakı xüsusi kateqoriyalara ayrılırlar: "mənfəət və zərər hesabına ədalətli dəyərlə tanınan" maliyyə aktivləri (MZHƏDT), "ödəniş tarixinədək saxlanılan" investisiyalar, "verilmiş kreditlər və debitor borcları" və satıla bilən maliyyə aktivləri (SMA). Təsnifləşdirmə maliyyə aktivinin növündən və saxlama məqsədindən asılıdır və ilkin tanınma zamanı təyin edilir.

**MZHƏDT maliyyə aktivləri**

Ticarət məqsədləri ilə saxlanılan maliyyə aktivləri "mənfəət və zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri" kateqoriyasına aid edilirlər. Yaxın gələcəkdə satılması nəzərdə tutulduqda, əldə edilən maliyyə aktivləri satış məqsədləri ilə saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilir. Törəmə maliyyə alətləri və effektiv hedcinq alətləri istisna olmaqla, satış məqsədləri ilə saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilir. Satış məqsədləri ilə saxlanılan aktivlər üzrə yaranan mənfəət və zərərlər müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə alətləri**

Cəmiyyət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliyini maliyyə vəziyyəti haqqında ilkin maliyyə hesabatında tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı hesablaşma tarixinə əməliyyat tanınır. Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. İlkin tanınma zamanı maliyyə aktivləri və öhdəliklərinin satın alınması və ya yerləşdirilməsi ilə bağlı bütün birbaşa əməliyyat xərcləri (mənfəət və zərər hesabına tanınan maliyyə aktiv və öhdəlikləri istisna olmaqla) müvafiq olaraq maliyyə aktivinin ədalətli dəyərindən azaldılır və ya maliyyə öhdəliyinin ədalətli dəyərinə əlavə edilir. Mənfəət və zərər hesabına tanınan maliyyə aktiv və öhdəliklərinin satın alınması və ya yerləşdirilməsi ilə bağlı birbaşa əməliyyat xərcləri dərhal mənfəət və zərər hesablarında tanınır.

**Satıla bilən maliyyə aktivləri**

Satıla bilən maliyyə aktivləri, əvvəlcədən bu kateqoriyaya aid olunması nəzərdə tutulan və ya bundan əvvəlki kateqoriyaların heç birinə aid edilə bilməyən qeyri-törəmə aktivlərdir. İlkin tanınmadan sonra satıla bilən maliyyə aktivləri ədalətli dəyər əsasında ölçülür və yaranan mənfəət və zərərlər digər məcmu gəlirlər hesablarında qeydə alınır. İnvestisiyanın tanınmasına xitam verildikdə və ya onun dəyərində ehtimal edilən azalmalar baş verdikdə əvvəllər məcmu gəlirlər hesablarında qeydə alınan mənfəət və gəlirlər müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi**

Əgər ticarət məqsədi ilə saxlanılan qeyri-törəmə maliyyə aktivinin yaxın gələcəkdə satılması məqsədi aktuallığını itirirsə, bu zaman belə maliyyə alətləri mənfəət və zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri kateqoriyasından çıxarılaraq aşağıdakı kateqoriyalardan birinə yenidən daxil olunur:

Əvvəlcədən satıla bilən investisiyalar kateqoriyasına aid edilmiş maliyyə aləti verilmiş kreditlər və debitor borcları kateqoriyasının təyinatına uyğun gəldikdə və Cəmiyyət bu aləti yaxın gələcəkdə və ya müddəti bitənədək saxlamaq niyyəti və imkanı yarandıqda, Cəmiyyət onu verilmiş kreditlər və debitor borcları kateqoriyasına yenidən daxil edə bilər.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi**

Hər bir hesabat tarixinə Cəmiyyət maliyyə aktivinin və ya maliyyə aktivlərinin dəyərsizləşməsi halının baş verməsinin obyektiv sübutunun olub-olmamasını dəyərləndirir. Əgər maliyyə aktivinin və ya maliyyə aktivlərinin dəyərsizləşməsi ehtimal edilirsə və yalnız ilkin tanınma tarixindən sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində dəyərsizləşmənin obyektiv sübutu yaranmışdırsa (baş vermiş "zərər hadisəsi") və zərər hadisəsi (və ya hadisələri) bu maliyyə alətləri və ya maliyyə alətləri Cəmiyyət üzrə təxmin edilən gələcək pul vəsaitlərinin axınına təsir göstərirsə və bu təsirin etibarlı şəkildə təxmin edilməsi mümkündürsə, bu zaman belə maliyyə aktivləri və ya maliyyə aktivləri Cəmiyyət dəyərsizləşmiş sayılır.

Dəyərsizləşmənin sübutu kimi borc götürənin və ya borc götürənlər Cəmiyyətin əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi, faiz və əsas borcların ödənilməməsi və ya ödənilməsində gecikmələrin yaranması, müştərilərin iflas etməsi və ya digər yenidən təşkilati strukturun dəyişdirilməsi və bu zaman təxmin edilən gələcək pul vəsaitlərinin azalmasına dair konkret məlumatın olması ehtimalının yaranması, məsələn borcun ödənilməməsində şəraitin və iqtisadi şərtlərin dəyişməsi halları götürülə bilər.

**Maliyyə aktivlərinin uçotunun xitamı**

Cəmiyyət maliyyə aktivi müqaviləsi üzrə pul vəsaitlərinin alınması hüququnun başa çatması və ya maliyyə aktivi, eləcə də sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürülməsi halında maliyyə aktivinin tanınmasına xitam verir. Cəmiyyət sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və üstünlükləri digər tərəfə ötürdükdə belə transfer edilmiş aktiv üzərində nəzarəti saxlayırsa, bu zaman saxlanılmış maraqlar hesabatlarda aktiv kimi tanınır və müvafiq şəraitdə Cəmiyyətin ödənilməsi ehtimal edilən məbləğləri də müvafiq olaraq öhdəlik kimi tanınır. Əgər Cəmiyyət transfer edilən maliyyə aktivinin sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları özündə saxlayırsa, bu zaman aktivin tanınması davam edir və əlavə olaraq girov qoyularaq götürülmüş vəsaitlər də borc məbləği kimi maliyyə vəziyyəti hesabatında tanınır.

Maliyyə aktivi hesabatlardan tam şəkildə çıxarıldıqda, aktivin qalıq dəyəri ilə onun transferindən alınan və ya alınması nəzərdə tutulan məbləğlərin cəmi arasındakı fərq məcmu gəlirlər hesabatlarında xitam anınadək tanınmış və kapital hesablarında uçotu aparılan mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır.

Maliyyə aktivi hesabatlardan qismən çıxarıldıqda (məsələn, Cəmiyyətin transfer edilmiş aktivin bir hissəsini geri almaq seçimi olduqda və ya bu aktiv üzrə sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürülərək yalnız cüzi bir hissənin saxlanılması və bunun nəticəsində nəzarətin Cəmiyyətdə qalması halları), Cəmiyyət aktivin qalıq dəyərini cari iştirak ilə bağlı tanınması davam edən qisim və transfer edilən hissələrin nisbi ədalətli dəyərinə görə təyin edilmiş və maliyyə vəziyyəti hesabatında tanınmayan qisimdən ibarət iki hissəyə ayırır.

Aktivin tanınmasına xitam verilmiş qisminə aid edilən qalıq dəyəri ilə onun transferindən alınan məbləğlərin cəmi arasındakı fərq məcmu gəlirlər hesabında xitam anınadək tanınmış mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır. Məcmu gəlirlər hesabında tanınmış mənfəət və zərər məbləğlərini aktivin tanınmasına xitam verilən qismi ilə tanınması davam edən qismi arasında bölərkən bu qismlərin ədalətli dəyərlərinin nisbətləri əsas götürülür.

**Debitor borcları**

Debitor borcları effektiv faiz dərəcəsi istifadə edilməklə amortizasiya olunmuş dəyər ilə təqdim edilir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat, Cəmiyyətin debitorlardan alınacaq vəsaitlərinin ilkin razılaşmaya uyğun olaraq ödənilməli olan bütün məbləğləri toplaya bilməyəcəyi barədə obyektiv sübut olduqda müəyyən edilir. Ehtiyatın məbləği aktivin qalıq dəyəri ilə təxmin edilən gələcək pul vəsaiti axınlarının cari effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış dəyər arasındakı fərqdir. Ehtiyatın məbləği məcmu gəlirlər hesabatında tanınır.

**Kreditlərin və avansların silinməsi**

Kreditlər və avanslar yığılması mümkün olmadıqda kreditlər üzrə ehtimal olunan dəyərsizləşmə zərəri üçün ehtiyatlara qarşı hesabdan silinir. Rəhbərlik Cəmiyyətə ödənilməli olan borcların yığılması üçün bütün mümkün vasitələrdən istifadə etdikdən sonra kreditlər və avanslar hesabdan silinir. Əvvəllər hesabdan silinmiş məbləğlərin sonradan bərpa edilməsi ödənişlərin qaytarılması dövründə mənfəət və ya zərər haqqında hesabatda maliyyə aktivlərinin dəyərsizləşməsi məbləğinə qarşı əvəzləşdirilir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nağd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

**Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Sonrakı dövrlərdə kreditlər və borclar amortizasiya olunan dəyər ilə əks etdirilir: İstənilən alınmış vəsaitlər və ödənilmiş məbləğlər arasındakı fərq kredit və borcların verilmə müddəti ərzində mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. (Effektiv faiz dərəcəsi metodu istifadə edilməklə)

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqrazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödəmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekt çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

**Maliyyə alətlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktivdən pul daxilolmaları üzrə onun müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları digər tərəfə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır. Cəmiyyət aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları digər tərəfə köçürməzsə və ya özündə saxlamasa və köçürülmüş aktiv üzərində nəzarətini davam etdirərsə, o, aktivdə saxlanılmış payını və bununla əlaqədar ödəyəcəyi məbləğlər ilə əlaqədar girovu təmin edilmiş borc vəsaitlərini də uçotda tanıyır.

Maliyyə aktivinin tanınması təmamilə dayandırıldığı halda, maliyyə aktivinin balans dəyəri ilə nəzəri olaraq alınmış və alınacaq məbləğlər və digər məcmu gəlirdə tanınmış və kapitalda toplanan yığılmış gəlirlər və zərərlər arasındakı fərq mənfəət və zərərdə tanınır.

Maliyyə aktivinin tanınmasının təmamilə dayandırılması halından başqa digər hallarda (məs. Cəmiyyət ötürülmüş aktivlərin bir hissəsini almaq hüququnu saxlayırsa), Cəmiyyət maliyyə aktivinin əvvəl müəyyən edilmiş balans dəyərini maliyyə çətinliyi davam etdiyi müddətdə tanımağa davam etdiyi hissə ilə aktivlərin ötürülməsi tarixində həmin hissələrin nisbi ədalətli dəyərləri əsasında artıq tanımayan hissə arasında bölüşdürür. Artıq tanımayan hissəyə aid edilmiş balans dəyəri ilə artıq tanımayan hissə üzrə alınmış ödəniş məbləği və ona aid edilmiş, digər mənfəət haqqında hesabatda tanınmış hər hansı yığılmış gəlir və ya zərər arasında fərq mənfəət və ya zərər uçotunda tanınır. Digər mənfəət haqqında hesabatda tanınmış yığılmış gəlir və ya zərər tanınması davam edən hissə ilə belə hissələrin ədalətli dəyəri əsasında tanınması artıq dayandırılmış hissə arasında bölüşdürülür.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəlikləri "MZHƏDT maliyyə öhdəlikləri" və "digər maliyyə öhdəlikləri" olmaqla iki hissəyə ayrılır.

**MZHƏDT maliyyə öhdəlikləri**

Maliyyə öhdəlikləri ticarət məqsədləri ilə saxlanıldıqda və ya xüsusi olaraq MZHƏDT şəklində nəzərdə tutulduqda MZHƏDT maliyyə öhdəlikləri kateqoriyasına aid edilirlər.

MZHƏDT maliyyə öhdəlikləri ədalətli dəyərlə təqdim edilir və yenidən ölçülmə zamanı yaranan mənfəət və zərər məbləğləri müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır. Mənfəət və zərər hesabında tanınan xalis mənfəət və ya zərərə maliyyə öhdəliyi üzrə ödənilən bütün faizlər daxildir və bu məbləğ məcmu gəlirlər hesabatında "digər gəlirlər/(zərərlər)" bəndində öz əksini tapır.

**Digər maliyyə öhdəlikləri**

Digər maliyyə öhdəlikləri ilkin olaraq bütün əməliyyat xərcləri çıxıldıqdan sonra ədalətli dəyər ilə ölçülür. Digər maliyyə öhdəlikləri növbəti dövrlərdə effektiv faiz dərəcəsi metodundan istifadə olunmaqla amortizasiya edilmiş maya dəyərində ölçülür və faiz xərcləri effektiv gəlir kriteriyasına əsaslanaraq

tanınır. Effektiv faiz dərəcəsi metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş maya dəyərinin hesablanılması və faiz xərci məbləğinin müvafiq dövrlər üzrə paylaşdırılmasını nəzərdə tutur. Bu metod maliyyə öhdəliyinin nəzərdə tutulan istifadə müddəti üzrə təxmin edilən gələcəkdə ödəniləcək vəsaitləri və ya müvafiq olduqda, daha qısa müddət üzrə maliyyə öhdəliyinin qalıq dəyərini dəqiq diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliyinin tanınması yalnız Cəmiyyət ödəniş ödədiyini yerinə yetirdikdə, belə ödəniş ləğv olunduqda yaxud müddəti başa çatdıqda dayandırır. Mövcud maliyyə öhdəliyi tam başqa şərtlərlə eyni kreditorun təqdim etdiyi digər öhdəliklə əvəzlənərsə, belə əvəzlənmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir.Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğ arasındakı fərq mənfəət və zərər uçotunda tanınır.

**Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız Cəmiyyətin aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda və ya eləcə də Cəmiyyətin müqavilə üzrə əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər. Maliyyə aktivlərinin müvəqqəti olaraq qarşı tərəfə transfer edilməsi zamanı bu maliyyə aktivləri qarşı tərəfin öhdəliyi ilə əvəzləşdirilmir.
Maliyyə öhdəliklərinin tanınmasına xitam verilməsi

Cəmiyyət maliyyə öhdəliklərinə yalnız Cəmiyyətin öhdəliklərinin silinməsi, ləğv edilməsi və ya müddətinin başa çatması hallarında xitam verir. Tanınmasına xitam verilmiş maliyyə öhdəliyinin qalıq dəyəri ilə ödənilmiş və ya ödəniləcək məbləğlərin cəmi arasındakı fərq dərhal mənfəət və zərər hesablarında tanınır.

**Derivativ (törəmə) maliyyə alətləri**

Cəmiyyət valyuta mübadiləsi ilə bağlı riskləri tənzimləmək məqsədilə xarici valyuta üzrə müxtəlif derivative forvard müqavilələri kimi törəmə maliyyə alətlərinə daxil olur.

Derivativlər derivative müqaviləsinin bağlandığı tarixdə ilkin olaraq uçotda ədalətli dəyərlə tanınır və daha sonra isə hər hesabat dövrünün sonunda onların ədalətli dəyəri ilə yenidən qiymətləndirilir. Onların dövrünün sonuna olan ədalətli dəyərinə qarşı təkrar ölçülür. Nəticədə yaranmış gəlir və ya zərər derivativ hecinq aləti kimi təyin olunduqda və qüvvədə olduqda dərhal mənfəət və ya zərər hesabatında tanınır. Bu halda onların mənfəət və ya zərər hesabatında tanınması vaxtı hecinq əlaqələrinin xüusiyyətlərindən asılı olur.

Derivativlərin ədalətli dəyəri məqbul olduqda onlar aktivlər kimi, mənfi olduqda isə öhdəliklər kimi qeydə alınır. Cəmiyyət bəzi derivativləri tanınmış aktivlərin və ya öhdəliklərin ədalətli dəyərinin hecinqi kimi və ya cəmiyyətin öhdəlikləri (ədalətli dəyər hecinqi), yüksək ehtimallı proqnoz əməliyyatlarının hecinqi və ya

cəmiyyət öhdəliklərinin xarici valyuta riskinin hecinqi (pul vəsaitləri hecinqi) və ya xarici əməliyyatlara xalis investisiyaların hecinqi kimi müəyyən edir.

**Gəlirin tanınması**

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

- Xidmətlərin və malların təqdim edilməsindən gəlirlər

Xidmətlərin və malların təqdim edilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər və mallar təqdim edilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin və malların həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin və mallarının ümumi həcmindəki payı kimi qiymətləndirilir.

- Faiz gəlirləri

Faiz gəlirləri effektiv faiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır. Debitor borcunun dəyərinin aşağı düşməsi hallarında Cəmiyyət balans dəyərini əvəzi ödənilə bilən dəyərə qədər aşağı salır. Dəyərin bu qaydada aşağı salınması, maliyyə alətlərinin effektiv faiz dərəcəsindən istifadə edilməklə, ilkin tanınma tarixinə pul vəsaitləri axınının gələcək diskontlaşdırılmış hesablamaları yolu ilə müəyyən edilir. Dəyəri aşağı salınmış faiz gəlirləri konkret şəraitdən asılı olaraq, pul vəsaitlərinin daxil olması və ya xərclərin ödənilməsi qaydasında tanınır.

- Dividend gəlirləri

Dividend gəlirləri o zaman tanınır ki təsisçilərin mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

**Repo və əks repo müqavilələri**

Satış və geri alqı müqavilələri ("repo") təminatlı maliyyələşdirmə əməliyyatları kimi qəbul edilir. Alqı-satqı və geri alqı-satqı müqavilələri üzrə satılan qiymətli kağızlar maliyyə vəziyyəti haqqında hesabatda saxlanılır və alıcının müqavilə və ya adət üzrə onları satmaq və ya yenidən girov qoymaq hüququ olduqda, alqı-satqı və geri alqı müqavilələri üzrə girov qoyulmuş qiymətli kağızlar kimi yenidən təsnif edilir. Müvafiq öhdəlik borclar çərçivəsində təqdim olunur. Yenidən satış müqavilələri ("əks repo") əsasında alınmış qiymətli kağızlar kredit təşkilatlarından və ya müştərilərə verilən kreditlərdən alınacaq məbləğlər kimi uçota alınır. Satış və geri alış qiyməti arasındakı fərq mənfəət və ya zərərdə faiz xərcləri kimi nəzərə alınır və effektiv faiz metodundan istifadə etməklə repo müqavilələrinin müddəti ərzində hesablanır.

Qarşı tərəflərə verilmiş qiymətli kağızlar maliyyə vəziyyəti haqqında hesabatda saxlanılır. Borc götürülmüş qiymətli kağızlar, üçüncü şəxslərə satılmazsa, maliyyə vəziyyəti haqqında hesabatda qeyd edilmir, bu halda alqı-satqı mənfəət və ya zərər haqqında hesabatda zərərlər çıxılmaqla, mənfəətdə əks etdirilir. Onları qaytarmaq öhdəliyi ədalətli dəyərlə borclar kimi qeydə alınır.

## İcarə

İcarənin şərtlərinə əsasən mülkiyyət hüququ üzrə bütün risk və mükafatlar icarəçiyə ötürüldüyü zaman belə icarə maliyyə icarəsi kimi təsnifləşdirilir. Bütün digər icarələr əməliyyat icarəsi kimi təsnifləşdirilir.

## Cəmiyyət - İcarəyə götürən tərəf kimi

Əməliyyat lizinqi ilə bağlı ödənişlər, lizinq obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, lizinq müddəti ərzində düzxətli metod əsasında xərc kimi tanınır.

Əməliyyat icarəsi sövdələşməsinin bağlanması üçün icarə stimulları əldə olunduqda belə stimullar öhdəlik kimi tanınır. Stimullar üzrə ümumi mənfəət, lizinq obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, düz xətt üsulu əsasında icarə haqqı xərclərinin azalması kimi tanınır.

## Əmlak, avadanlıq

Əsas vəsaitlər, yığılmış amortizasiyanı və tələb olunduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır. Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə əks etdirlir. Torpaq üçün amortizasiya hesablanmır. Avadanlıqlar ilkin dəyər yığılmış köhnəlmə və amortizasiya və hər hansı tanınmış dəyərsizləşmə zərərinin çıxılması ilə əks etdirilir. Natamam tikililərin və istifadəyə verlilməyən obyektlərin amortizasiyasi istifadəyə hazır olduğu tarixdən hesablanır. Əmlak, tikili və avadanlığın amortizasiya azalan qalıq metodla aparılır.

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Cəmiyyətin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

## Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin faydalı ömrü

Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin faydalı ömrünün qiymətləndirilməsi, oxşar aktivlərlə təcrübəyə əsaslanaraq Rəhbərlik tərəfindən aparılır. Aktivin faydalı ömrünü müəyyənləşdirərkən, Rəhbərlik onun ehtimal edilən istifadə müddətini, təxmin edilən texniki köhnəlməsini, fiziki aşınma və köhnəlməsini və aktivin fəaliyyət göstərdiyi fiziki mühiti nəzərə alır.

## Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və dəyərsizləşmə zərərini çıxmaqla, maya dəyəri ilə qeydə alınır. Qeyri-maddi aktivlərə Proqram təminatı, Lisenziya və sertifikat daxildir.
Qeyri-maddi aktivlərin istifadə müddəti məhdud və ya qeyri-müəyyən hesab edilir.

Qeyri-maddi aktivin faydalı istifadə müddətinin məhdud və ya qeyri-müəyyən olduğunu qiymətləndirilməlidir və əgər bu müddət məhdud olarsa, bu müddət və ya faydalı istifadə müddəti ərzində

istehsal edilən məhsul və ya oxşar malların sayı (həcmi) müəyyənləşdirməlidir. Bütün faktorların təhlilinə əsaslanmaqla müəssisəyə aktivin nağd vəsait axınını təmin edəcəyi müddət hüdudlarını əvvəlcədən proqnozlaşdırmaq qeyri-müəyyən olduğu halda, müəssisə tərəfindən qeyri- maddi aktivə faydalı istismar müddəti qeyri-müəyyən olan aktiv kimi baxılır. Qeyri-maddi aktivin uçotu onun faydalı istifadə müddətinə əsaslanır. Faydalı istifadə müddəti məhdud olan qeyri-maddi aktiv amortizasiya edilir, faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri-maddi aktiv isə amortizasiya olunmur.

Gözlənilən istifadə müddəti və ya aktiv üzrə daxil olacaq gələcək iqtisadi səmərənin gözlənilən istifadə modelində dəyişikliklər müvafiq olaraq amortizasiya dövrünü və ya metodunu dəyişdirməklə uçot təxminlərində dəyişikliklər kimi qeydə alınır. Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri məcmu gəlir haqqında hesabatda qeyri-maddi aktivlərin funksiyasına uyğun olaraq xərc kateqoriyasında tanınır. Qeyri-müəyyən istifadə müddətinin hələ də münasib olmasını müəyyən etmək üçün qeyri-müəyyən istifadə müddəti hər il yenidən nəzərdən keçirilir. Artıq münasib deyilsə, istifadə müddəti perspektiv qaydada qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişdirilir.

- Qeyri-maddi aktivlər düz xətli amortizasiya metoduna uyğun olaraq amortizasiya olunur.

Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması
Qeyri-maddi aktivlər satılaraq hesabdan silindikdə yaxud onların sonrakı istismarı və ya satılması gələcəkdə iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasınıın dayandırılmasından yaranan gəlir və ya zərər, belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunan xalis gəlir məbləği arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər haqqında hesabatda tanınır.

**Maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi**

Cəmiyyət maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməyə məruz qalaraq qiymətlərin düşüb-düşmədiyini müəyyənləşdirmək üçün hər hesabat dövrünün sonunda bele aktivlərin balans dəyərini təhlil edir. Dəyərsizləşmənin baş verdiyinə dəlalət edən hər hansı hal mövcud olarsa, dəyərsizləşmə üzrə zərərin (əgər varsa) həcmini müəyyən etmək üçün aktivin bərpa dəyəri hesablanır. Aktivin fərdi hallarda bərpa dəyərinin hesablamaq mümkün olmazsa, Cəmiyyət belə aktivin aid olduğu gəlir gətirən aktivlər Cəmiyyətin bərpa dəyərini müəyyən edir. Aktivin yerləşdirilməsinə müvafiq və ardıcıllığı gözlənilən əsaslar müəyyən edildiyi hallarda, korporativ aktivlər, həmçinin fərdi gəlir gətirən aktivlər yerləşdirilə bilər yaxud müvafiq qaydada və ardıcıllığı gözlənilməklə yerləşdirmə əsasları müəyyən edilmiş ən kiçik gəlir gətirən aktivlər yer alır.

Qeyri-müəyyən istifadə müddəti olan və istifadə üçün hazır olmayan qeyri-maddi aktivlər ən azı ildə bir dəfə və ya dəyərsizləşmə əlaməti olduqda dəyərsizləşmə üzrə yoxlamadan keçməlidir.

Bərpa dəyəri ədalətli dəyərdən satış və istifadə dəyərlərini çıxıldıqdan sonra alınan daha yüksək məbləğdir. İstismar dəyərini qiymətləndirərkən təxmin edilən gələcək dövrlərin pul axınları pulun vaxt üzrə dəyərinin və gələcək pul axınları ilə bağlı təxminlərə düzəliş edilməmiş aktiv üçün səciyyəvi olan risklərin hazırki bazar qiymətləndirilməsini özündə əks etdirən vergiyə qədərki diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə qədər diskontlaşdırır.

Aktivin bərpa dəyərinin onun balans dəyərindən az olduğu hesablanarsa, belə aktivin balans dəyəri bərpa dəyərinə kimi azaldılır. Dəyərsizləşmə üzrə zərər sonradan əvəzləşdirilərsə, aktivin balans dəyəri hesablamasına düzəliş verilmiş bərpa dəyərinə qədər artırılır, bu şərtlə ki,artırılmış belə balans dəyəri aktivin dəyərsizləşmə zərərinin tanımadığı keçmiş illərdə müəyyən edilmiş balans dəyərindən artıq olmasın . Dəyərsizləşmə üzrə zərərin bərpası dərhal mənfəət və ya zərər hesabında tanınır.

Cəmiyyət vergi hesabatlarının qanunvericiliyə uyğun olduğuna inansa da, vergi orqanları tərəfindən yoxlama zamanı mübahisələndirilə biləcək məsələlər olduqda vergi öhdəliyi olaraq tanınır və nəticədə Cəmiyyət bu məsələ ilə bağlı risklərini azaldır.

Cəmiyyət keçmiş təcrübəsinə və qanunvericiliyin şərhinə əsaslanaraq vergi öhdəliyi hesablamalarının düzgün olmasına inanır. Bu dəyərləndirmə fərziyyələrə əsaslandığından gələcək dövrlərdə düzəliş edilməsi zərurəti yarana bilər. Bu cür zərurət yarandıqda mənfəət vergisi xərci məsələnin aşkar olunduğu dövrdə uyğunlaşdırılır.

**Əməliyyat vergiləri**

Azərbaycan Respublikasında Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər tətbiq edilir. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər haqqında hesabata daxil edilir.

**Cari vergi**

Ödənilməli olan cari vergi ili üzrə cəlb olunan mənfəət əsasında tutulur. Vergiyə cəlb olunan mənfəət digər illərdə vergiyə cəlb olunmuş yaxud gəlirdən çıxılan və heç vaxt vergiyə cəlb olunmayan yaxud gəlirdən çıxılmayan gəlir və xərc maddələri ilə əlaqədar mənfəət və zərər haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir. Cəmiyyətin cari vergi ilə bağlı öhdəliyi hesabat dövrünün sonuna qanuni qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam həcmdə qüvvəyə minmiş vergi dərəcələrindən istifadə etməklə hesablanır. Azərbaycan Respublikası Vergi Məcəlləsində qeyd edilən "İnvestisiya təşviqi" sənədini almış hüquqi şəxsin həmin sənədi aldığı tarixdən əldə etdiyi mənfəətin 50%-nə görə nəzərə alınan güzəşt məbləği tətbiq edilir.

**İşçi heyəti üzrə ödənişlər**

Əmək haqları, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidmətinə ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və müvafiq gəlir vergisi Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**İşçilərin mükafatları**

Əmək haqları, Dövlət Sosial Müdafiə fonduna ödənilən vəsaitlər, illik ödənilən məzuniyyət haqları və xəstəlik müavinətləri, mükafatlar və qeyri-monetar mükafatlar Cəmiyyətin işçilərinin bu vəsaitləri almaq üçün işlədikləri dövr üzrə hesablanır.

### Ehtiyatlar

Cəmiyyət keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır.

Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir. Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyərinin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda).

Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

### SIĞORTA EHTİYATLARI

Qazanılmamış sığorta haqları ehtiyatı - Sığorta mükafatının qazanılmayan hissəsi üçün ehtiyat balans hesabatı tarixinə qüvvədə olan və müddəti bitməyən qaydaların şərtləri ilə əlaqəli dövrdə qəbul olunmuş və vaxtaşırı hesablanan sığorta mükafatlarının bir hissəsini ifadə edir.
Zərərlər ehtiyatı - yekun zərərlər üçün hesablamaları əks etdirir. Zərərlər ehtiyatına bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı (BTZE) və baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı (BVBZE) daxildir. İddialarla bağlı xərclərin tənzimlənməsi üzrə hesablamalar hər iki ehtiyata (BTZE) və (BVBZE) daxil edilir. BTZE sığortaçıya bildirilmiş, lakin heasabat tarixinə qədər tənzimlənməmiş hər bir tələb üzrə hesablanır. BVBZE verilmiş sığorta ödənişlərinə əsasən hesabat tarixinə üçbucaq metodu ilə hesablanmış BVBZF. hesabat tarixinə hesablanmış BTZE-nin 25%-i və hesabat tarixindən əvvəlki 4 rüb ərzində qazanılmış məcmu sığorta haqlarının 2.5%-nin böyük olanı əsasında hesablanır. Yekun düzəlişlər yarandıqları dövr üzrə mənfəət və zərər haqqında hesabatda əks olunur.

### Mal və material ehtiyatları

Mal və material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərindən aşağı olanı ilə ifadə edilir. Mal və material ehtiyatlarının qiyməti ehtiyatların ilkin qiymətləndirilmə və satılma ardıcıllığı üsulu ilə (EQSA) təyin edilir və birbaşa olaraq satınalma, hasilat, nəqliyyat və emal xərclərini əhatə edir. Mal və material ehtiyatlarının qalıq dəyəri, dəyərinin az olmasından asılı olaraq ya bu mal və material ehtiyatlarının maya dəyərinə əsasən, ya da xalis amortizasiya dəyərinə əsasən qiymətləndirilir. Xalis realizasiya dəyəri ehtiyatların dəyərindən aşağı olduğu təqdirdə, qalıq dəyər xalis satış qiymətinə qədər salınır və artıq məbləğ dərhal məcmu gəlirlər hesabatına daxil edilir.

### Avans ödənişləri

Avans ödənişləri dəyərsizləşmə zərərləri üzrə ehtiyatların çıxılması ilə tanınır. Avans ödənişi ilə əlaqədar olan malların və ya xidmətlərin əldə edilməsi bir ildən sonra gözlənilirsə və ya avans ödənişi ilkin

tanınmadan sonra uzunmüddətli aktiv kimi tanınacaq aktivə aiddirsə, avans ödənişi uzunmüddətli kimi təsnifatlaşdırılır.

Cəmiyyətin aktiv üzərində nəzarət əldə etdiyi və bu aktivlə əlaqədar gələcəkdə iqtisadi mənfəətin axını ehtimal edildiyi hallarda aktivin əldə edilməsi üçün edilən avans ödənişləri aktivin qalıq dəyərinə ötürülür. Digər avans ödənişləri mallar və ya xidmətlər alındıqdan sonra mənfəət və zərər hesablarında əks etdirilir. Avans ödənişlərinə aid olan aktivlərin, malların və ya xidmətlərin alınmaması üzrə müəyyən göstəricilər yarandıqda avans ödənişinin qalıq dəyəri müvafiq olaraq silinir və dəyərsizləşmə zərəri mənfəət və zərər hesablarında tanınır.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixinə əməliyyatın həyata keçirilməsində maraqlı olan, yaxşı məlumatlandırılmış və bir-birindən asılı olmayan alıcı və satıcı arasında aktivin mübadilə edilə biləcəyi məbləğ və ya nəzərdə tutulmuş öhdəlikdir. Məqsədə uyğun olduqda, Cəmiyyət, həmin alət üzrə fəal bazara çıxarılmayan qiymətləri istifadə edərək alətin ədalətli dəyərini ölçür. Təyin edilmiş qiymətlər müntəzəm və tam olduqda, həmçinin bazar şəraitində baş verən bazar əməliyyatlarını faktiki və müntəzəm olaraq əks etdirdikdə bazar fəal hesab olunur. Maliyyə aləti üzrə bazar fəal olmadığı təqdirdə Cəmiyyət qiymətləndirmə üsulundan istifadə etməklə ədalətli dəyəri yaradır. Seçilmiş qiymətləndirmə üsulu bazarın istehsal amillərindən maksimum istifadə edir, Cəmiyyətin fəaliyyəti ilə bağlı xüsusi olan ehtimallara mümkün qədər az əsaslanır, bazar iştirakçılarının qiymət təyin edərkən nəzərə aldıqları bütün amilləri birləşdirir və maliyyə alətlərinin qiymətləndirilməsi üçün qəbul edilmiş iqtisadi metodologiyaya uyğun davranır.

**Şərti aktiv öhdəliklər**

Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında tanınmır, lakin, hesablaşma üzrə vəsaitlərin azalması ehtimalı olduqda, belə öhdəliklər açıqlanmalıdır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin, onlarla bağlı iqtisadi mənfəətin əldə olunacağı ehtimal edildikdə açıqlanmalıdır.

**Xarici valyutalar**

Cəmiyyətin maliyyə hesabatları hazırlanarkən, onun əməliyyat valyutasından başqa digər valyuta (xarici valyutalar) ilə aparılan əməliyyatlar belə əməliyyatların aparıldığı tarixdə üstünlük təşkil edən mübadilə məzənnələri ilə qeydə alınır. Hər hesabat dövrünün sonunda, xarici valyuta ilə ifadə olunmuş pul vəsaitlərinin valyuta mövqeyi ədalətli dəyərin müəyyən olunduğu tarixdə üstünlük təşkil edən məzənnə ilə təkrar qiymətləndirilir. Xarici valyutada ədalətli dəyər ilə uçota alınmış qeyri-pul vəsaitlərinin valyuta mövqeyi ədalətli dəyərin müəyyənləşdirdiyi tarixdə üstünlük təşkil edən məzənnə təkrar qiymətləndirilir. Monetar maddələr üzrə valyuta fərqləri aşağıdaki hallar istisna olmaqla mənfəət və ya zərər hesabatında baş verdiyi dövrdə tanınır:

- Gələcəkdə istifadə üçün nəzərdə tutulmuş başa çatdırılmamış aktivlərlə əlaqəli xarici valyuta ilə ifadə olunmuş borclar üzrə məzənnə fərqləri, xarici valyuta ilə ifadə olunmuş borclar üzrə faiz xərclərinə düzəliş kimi hesab olunduqda aktivlərin dəyərinə daxil edilir.

- Müəyyən xarici valyuta risklərinin qarşısını almaq üçün aparılan əməliyyatlar üzrə valyuta fərqləri (aşağıdakı hecinqin uçotu qaydalarına baxın) və hesablaşmanın olmadığı və olacağı güman edilməyən xarici əməliyyatlarda xalis investisiya formalaşdırır), hansı ki, ilk əvvəl digər gəlirlərdə göstərilir və daha sonra səhmdar kapitalından pul vəsaitlərinin mənfəət və zərər hesabına təsnif edilir.

- Maliyyə hesabatlarının təqdim edilməsi məqsədilə ilə Cəmiyyətin xarici əməliyyatlarının aktiv və öhdəlikləri hər hesabat müddətinin sonunda qüvvədə olan mübadilə məzənnələri əsasında AZN-ə çevrilir, istisna hallarda valyuta mübadilə məzənnələri həmin müddət ərzində əhəmiyyətli dərəcədə tərəddüd etdiyi halda sövdəşmələrin tarixində qüvvədə olan valyuta mübadilə məzənnələri istifadə olunur. Hər hansı valyuta mübadilə fərqləri meydana gəldiyi halda digər məcmu gəlirlər haqqında hesabatda tanınır və kapitalda toplanır.

- Maliyyə hesabatlarının hazırlanmasında Cəmiyyətin ilin sonunda tətbiq etdiyi valyuta mübadiləsi məzənnələr aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **1 ABŞ dolları 1 AZN** | **1.7000** | **1.7000** |
| **1 Avro 1 AZN** | **2.0022** | **1.7724** |

Cəmiyyət növbəti ildə aktivlərin və öhdəliklərin hesabat olunan məbləğlərinə təsir edəcək qiymətləndirmələr aparır və fərziyyələr irəli sürülür. Qiymətləndirmələr və mühakimələr davamlı qaydada aparılır, rəhbərliyin təcrübəsinə və digər amillərə, habelə şəraitə uyğun hesab olunan gələcək hadisələrlə bağlı gözləntilərə əsaslanır. Rəhbərlik mühasibat uçotu qaydalarının tətbiqi prosesində qiymətləndirmə tələb olunan mühakimələrdən əlavə bəzi qərarlar və növbəti ildə aktiv və öhdəliklərin balans dəyərində mühüm düzəlişlərə səbəb ola biləcək qiymətləndirmələr aşağıdakılardan ibarətdir:

**Kreditlərin və debitor borclarının dəyərsizləşməsi**

Cəmiyyət dəyərsizləşməni müəyyən etmək məqsədilə kreditləri və debitor borclarını mütamadi olaraq nəzərdən keçirir. Cəmiyyətin kreditlər və debitor borcları portfelində baş vermiş dəyərsizləşmə üzrə zərərin tanınması üçün kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatlar yaradılır.

Cəmiyyətin kredit və debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlara dair mühasibat təxminlərini qeyri-müəyyən hesab edir, ona görə ki, onlar gələcək defolt dərəcələri barədə fərziyələrin, eləcə də dəyərsizləşmiş kreditlər və debitor borcları ilə bağlı potensial itkilərin qiymətləndirilməsinin yaxın keçmişdəki fəaliyyət nəticələrinə əsaslanması səbəbindən vaxtaşırı olaraq dəyişikliklərə çox məruz qalır və Cəmiyyətin hesablandığı zərər ilə faktiki zərər arasında hər hansı əhəmiyyətli fərq müqabilində ondan gələcək dövrlərdə maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək ehtiyatların qeyd edilməsi tələb oluna bilər.

Borcalanlar maliyyə çətinlikləri ilə üzləşdikdə və belə borcalanlara dair tarixi məlumat mənbələri az sayda olduqda, Cəmiyyət hər hansı dəyərsizləşmə üzrə zərərin məbləğini hesablamaq üçün rəhbərliyin mülahizələrindən istifadə edir.

Eynilə, Cəmiyyət keçmiş fəaliyyət nəticələri, keçmiş müştəri davranışı, daxilində borcalanın ödəniş etmə vəziyyətindəki mənfi dəyişikləri göstərən müşahidə oluna bilən məlumatları, eləcə də daxilində

aktiv üzrə öhdəliyin yerinə yetirilməməsi halları ilə əlaqəli olan ölkə və yerli iqtisadi şəraitlərə əsaslanmaqla gələcək pul axınlarındakı dəyişiklikləri hesablayır. Rəhbərlik kredit riski ilə səciyyələnən aktivlər halında avvəllər baş vermiş zərər üzrə keçmiş təcrübəyə və kreditlərunda olduğu kimi dəyərsizləşməyə dəlalət edən obyektiv sübutlara əsaslanan ehtimallardan istifadə edir. Cəmiyyət tarixi məlumatlarda əksini tapmamış hazırki vəziyyətlərin qeyd edilməsi məqsədilə kreditlər üzrə müşahidə oluna bilən məlumatlara düzəliş etmək üçün rəhbərliyin mühakimələrdən istifadə edir.

Maliyyə hesabatlarında maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyyat müddəasının daxil edilməsi mövcud iqtisadi və siyasi şəraitlərə əsasən müəyyən olunmuşdur. Cəmiyyət Azərbaycan Respublikasında belə şəraitlərdə hansı dəyişikliklərin baş verecəyini və belə dəyişikliklərin gələcək dövrlərdə maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyatlara necə təsir göstərəcəyini qabaqcadan söyləmək iqtidarında deyil.

**Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar**

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edilərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 4. YENİ VƏ DÜZƏLİŞ EDİLMİŞ MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARININ (MHBS) TƏTBİQİ

Aşağıdakı yenidən işlənmiş standartlar 1 yanvar 2020-ci il tarixindən qüvvəyə minmiş, lakin cəmiyyəti əhəmiyyətli dərəcədə təsir göstərməmişdir:

***BMHS 16-ya dəyişiklik – COVID-19 ilə əlaqədar icarə güzəştlərinin uçotu (28 may 2020-ci ildə dərc olunub və 1 iyun 2020-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu dəyişiklik icarəyə götürənləri COVID-19 ilə əlaqədar icarə güzəştinin icarə modifikasiyası olub olmadığını qiymətləndirmək üçün fakultətiv azadolma formasında güzəştlə təmin edir. İcarəyə götürənlər icarə güzəştlərinin uçotunu belə güzəştlərin icarə modifikasiyası formasında aparmaya bilərlər. Bu praktiki istisna yalnız COVID-19 pandemiyası ilə əlaqədar olaraq təqdim edilmiş icarə güzəştlərinə və yalnız aşağıdakı şərtlər yerinə yetirildiyi təqdirdə tətbiq edilir: icarə ödənişlərindəki dəyişiklik icarə haqqının dəyişiklikdən dərhal əvvəl icarə ödənişindən artıq olmayacağı halda yenidən nəzərdə keçirilməsinə səbəb olur; icarə ödənişlərindəki hər hansı azalma yalnız 30 iyun 2021-ci il tarixindən gec olmayan ödənişlərə təsir edir; və digər icarə şərtlərində ciddi dəyişikliklər olmur.

***BMHS 9, BMS 39 və BMHS 7, BMHS 4 və BMHS 16 üzrə Faza 2 düzəlişləri - Baza faiz dərəcəsi (IBOR) islahatı (27 avqust 2020-ci ildə dərc olunub və 1 yanvar 2021-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Faza 2 düzəlişləri bir baza faiz dərəcəsinin alternativ ilə əvəzlənməsi də daxil olmaqla, islahatların nəticələrindən irəli gələn məsələlərin həllinə yönəlib. Dəyişikliklər aşağıdakı sahələri əhatə edir:

- *IBOR islahatı nəticəsində yaranan müqavilə üzrə pul axınlarının müəyyən edilməsi əsaslarındakı dəyişikliklərin uçotu:* Amortizasiya olunmuş maya dəyəri ilə qiymətləndirmənin tətbiq edildiyi alətlər üçün dəyişikliklərə əsasən müəssisələr praktiki istisna olaraq, IBOR islahatı nəticəsində yaranan müqavilə üzrə pul axınlarının müəyyən edilməsi əsaslarındakı dəyişikliyi BMHS 9-un B5.4.5-ci

bəndində göstərilən təlimatdan istifadə edərək effektiv faiz dərəcəsini dəyişdirməklə uçota almalıdır. Nəticədə gəlir və zərərin dərhal tanınması tələb olunmur. Bu praktiki istisna yalnız belə bir dəyişikliyə və birbaşa olaraq IBOR islahatı nəticəsində zəruri olduğu dərəcədə tətbiq olunur, yeni əsaslar isə iqtisadi cəhətdən əvvəlki əsaslara bərabərdir. BMHS 9-dan müvəqqəti azadolmanı tətbiq edən sığortaçılar da eyni praktiki istisnanı tətbiq etməlidirlər. Bundan əlavə, BMHS 16-da IBOR islahatı nəticəsində gələcək icarə ödənişlərinin müəyyən edilməsi əsaslarını dəyişdirən icarə dəyişikliklərinin uçotu zamanı icarəyə götürənlərin oxşar praktiki istisnadan istifadə etməsini tələb edən dəyişiklik edilmişdir.

- *Hedcinq münasibətlərində müqavilə ilə müəyyən olunmayan risk komponentləri üçün Faza 1-dəki azadolmanın bitmə tarixi:* Faza 2 düzəlişlərinin tələbinə əsasən müəssisələr müqavilə ilə müəyyən olunmayan risk komponentindəki dəyişikliklərin tarixi və ya hedcinq münasibətlərinin dayandırıldığı tarixdə (bunlardan hansı daha tez baş verərsə) Faza 1-dəki azadolmaların müqavilə ilə müəyyən olunmayan risk komponentlərinə tətbiqini gələcəkdə dayandırmalıdır. Faza 1 düzəlişləri risk komponentləri üçün bitmə tarixini müəyyən etmir.
- *Hedcinq uçotu üzrə müəyyən tələblərin tətbiqindən əlavə müvəqqəti azadolmalar:* Faza 2-dəki dəyişikliklər IBOR islahatının birbaşa təsir göstərdiyi hedcinq münasibətləri ilə bağlı BMS 39 və BMHS 9 ilə müəyyən edilmiş hedcinq uçotu üzrə xüsusi tələblərin tətbiqindən bəzi əlavə müvəqqəti azadolmaları nəzərdə tutur.
- *BMHS 7-də IBOR islahatı ilə bağlı əlavə açıqlamalar:* Dəyişikliklər aşağıdakı məlumatların açıqlanması tələblərini müəyyən edir: (i) müəssisə alternativ baza dərəcələrinə keçidi necə idarə edir; bu prosesin statusu və keçidlə bağlı risklər; (ii) keçid mərhələsində olan və əhəmiyyətli baza faiz dərəcələri üzrə bölüşdürülmüş törəmə və qeyri-törəmə maliyyə alətləri haqqında kəmiyyət məlumatı; və (iii) IBOR islahatı nəticəsində risklərin idarə edilməsi strategiyasındakı hər hansı dəyişikliyin təsviri.

***IBOR islahatının təsiri.*** Banklararası təklif olunan faiz dərəcələrinin (“IBOR”) islahatı və dəyişdirilməsi tənzimləyici orqanlar üçün prioritet məsələyə çevrilmişdir. Əksər IBOR dərəcələrinin dərc olunması 31 dekabr 2021-ci il tarixinə qədər, ABŞ dollarında müəyyən LIBOR dərəcələrinin dərc olunması isə 30 iyun 2023-cü il tarixinə qədər dayandırılacaq.

**Yeni uçot qaydaları**

1 yanvar 2022-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və cəmiyyət tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

BMHS 10 və BMS 28-ə dəyişikliklər “İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi” (11 sentyabr 2014-cü ildə dərc olunub və BMUSŞ tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər investor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi ilə bağlı BMHS 10 və BMS 28-in tələbləri arasındakı uyğunsuzluğu aradan qaldırır. Dəyişikliklərin əsas nəticəsi ondan ibarətdir ki, mənfəət və zərər əməliyyatın biznesə aid olduğu halda tam tanınır. Aktivlər özündə biznesi əks etdirmədikdə, hətta bu aktivlər törəmə müəssisəyə məxsus olsa belə, mənfəət və ya zərərin yalnız bir hissəsi tanınır.

BMHS 17 “Sığorta müqavilələri” (18 may 2017-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir). BMHS 17 müəssisələrə sığorta müqavilələrinin uçotu üzrə mövcud praktikanı tətbiq etməyə icazə verən BMHS 4-ü əvəz edir. BMHS 4-ə əsasən investorlar analoji sığorta şirkətlərində maliyyə nəticələrini müqayisə etmək və

üzləşdirməkdə çətinlik çəkirdilər. BMHS 17 sığortaçının təkrarsığortaya verdiyi müqavilələr daxil olmaqla, bütün növ sığorta müqavilələrinin uçotu üçün prinsiplərə əsaslanan yeganə standartıdır. Bu standarta əsasən sığorta müqavilələri qrupu: (i) müqavilələrin icrası üzrə pul axınları haqqında bütün mövcud məlumatları müşahidə edilə bilən bazar məlumatlarına uyğun olaraq nəzərə alan gələcək pul axınlarının riskə görə tənzimlənmiş cari dəyərində (müqavilələrin icrası üzrə pul axınları); üstə gəl (dəyər öhdəlik olduqda) və ya çıxılsın (dəyər aktiv olduqda); (ii) müqavilələr qrupu üzrə bölüşdürülməmiş mənfəətin (müqavilə üzrə xidmət marjası) məbləğində tanınmalı və qiymətləndirilməlidir. Sığortaçılar, sığorta müqavilələri qrupundan yaranan gəliri sığorta təminatının təqdim edildiyi dövr ərzində, eləcə də riskdən azad olunduğu halda tanıyacaqlar. Müqavilələr qrupu üzrə zərər mövcuddursa və ya mövcud olarsa müəssisə dərhal zərəri tanıyacaqdır.

BMHS 17 və BMHS 4-ə dəyişikliklər (25 iyun 2020-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir). Dəyişikliklər BMHS 17-nin tətbiqini asanlaşdırmaq, həmçinin standart və ona keçidlə bağlı müəyyən tələbləri sadələşdirmək üçün bəzi izahlardan ibarətdir. Bu dəyişikliklər BMHS 17-nin səkkiz sahəsini əhatə edir və standartın əsas prinsiplərinin dəyişdirilməsini nəzərdə tutmur. BMHS 17-yə aşağıdakı dəyişikliklər edilmişdir:

- *Qüvvəyə minmə tarixi:* BMHS 17-nin qüvvəyə minmə tarixi (dəyişikliklər daxil olmaqla) 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə qədər iki il təxirə salınmışdır; BMHS 4 ilə müəyyən olunan BMHS 9-un tətbiqindən müvəqqəti azadolmanın qüvvədə olma müddəti də 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə qədər təxirə salınmışdır.
- *Sığorta müqaviləsinin əldə edilməsi zamanı pul axınlarının gözlənilən bərpası:* Müəssisələr sığorta müqaviləsinin əldə edilməsi xərclərinin bir hissəsini gələcəkdə yenilənməsi gözlənilən müvafiq müqavilələrə ayırmalı və bu xərcləri müəssisə yenilənmiş müqavilələr tanıyana qədər aktiv kimi tanımalıdır. Müəssisələr hər bir hesabat tarixinə aktivin bərpa olunma ehtimalını qiymətləndirməli və maliyyə hesabatları üzrə qeydlərdə həmin aktiv haqqında məlumat təqdim etməlidir.
- *İnvestisiya xidmətləri ilə əlaqəli müqavilə üzrə xidmət marjası:* Dəyişən haqların bölüşdürülməsi yanaşması üzrə müqavilələr və ümumi modelə əsasən 'investisiya gəlirlərinin əldə edilməsi ilə bağlı xidmətlər' üzrə digər müqavilələr üçün sığorta təminatı üzrə faydaların həcmini, eləcə də sığorta təminatı və investisiya xidmətləri üzrə gözlənilən dövrü nəzərə almaqla, təminat vahidləri müəyyən edilməlidir. İnvestisiya fəaliyyəti ilə əlaqəli xərclər müəssisənin belə fəaliyyəti sığortalılara sığorta təminatından əldə olunan faydaları artırmaq məqsədilə həyata keçirildiyi halda, sığorta müqaviləsi çərçivəsində pul axınları kimi daxil edilməlidir.

- *Təkrarsığortaya verilmiş sığorta müqavilələri - zərərlərin ödənilməsi:* Müəssisə zərərli baza sığorta müqavilələri qrupunun ilkin tanınması və ya zərərli baza sığorta müqavilələrinin qrupa əlavə edilməsi zamanı zərəri tanıdıqda, müvafiq təkrarsığortaya verilmiş sığorta müqavilələri qrupundakı müqavilə üzrə xidmət marjasına düzəliş etməli və belə müqavilələr üzrə gəliri tanımalıdır. Təkrarsığortaya verilmiş sığorta müqaviləsi üzrə ödənilən zərərin məbləği baza sığorta müqavilələri üzrə tanınmış zərəri müəssisənin təkrarsığortaya verilmiş sığorta müqaviləsi üzrə ödənilməsini gözlədiyi baza sığorta müqavilələri üzrə zərərlərin nisbətinə vurmaqla müəyyən edilir. Bu tələb yalnız təkrarsığortaya verilmiş sığorta müqaviləsi baza sığorta müqavilələri üzrə zərərin tanınmasından əvvəl və ya onunla eyni vaxtda tanındıqda tətbiq edilməlidir.
- *Digər dəyişikliklər:* Digər dəyişikliklərə aşağıdakılar daxildir: bəzi kredit kartı (və ya oxşar) müqavilələri və bəzi kredit müqavilələrində tətbiq sahəsi ilə bağlı istisnalar; sığorta müqavilələri üzrə aktiv və öhdəliklərin maliyyə vəziyyəti hesabatında qruplar əvəzinə portfellər üzrə təqdim edilməsi; təkrarsığortaya verilmiş sığorta müqavilələrindən və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərə aid olunan qeyri-törəmə maliyyə alətlərindən istifadə edərək maliyyə risklərini azaltmaq üçün risklərin azaldılması imkanının tətbiqi; BMHS 17-ni tətbiq edərkən əvvəlki aralıq maliyyə hesabatlarındakı uçot təxminlərinə dəyişikliklər etmək üçün uçot siyasəti seçimi;

sığorta müqaviləsinin şərtlərinə əsasən müəyyən sığortalıya aid edilən mənfəət vergisi ödənişlərinin və daxilolmaların müqavilələrin icrası üzrə pul axınlarına daxil edilməsi; keçid dövründə tələblərdən seçim əsasında azadolmalar və digər kiçik dəyişikliklər.

***BMS 1-ə dəyişikliklər – Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi (23 yanvar 2020-ci il tarixində dərc olunub və 1 yanvar 2022-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu az əhəmiyyətli dəyişikliklər hesabat dövrünün sonunda mövcud olan hüquqlardan asılı olaraq, öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirildiyini izah edir. Müəssisə hesabat dövrünün sonunda öhdəliyin icrasını ən azı on iki ay müddətinə təxirə salmaq üçün əsaslı hüquqa malik olduqda, öhdəliklər uzunmüddətli kimi təsnifləşdirilir. Bu dəyişikliklər belə hüququn şərtsiz olmasını artıq tələb etmir. Rəhbərliyin hesabat tarixindən sonrakı dövr ərzində öhdəliyin icrasını təxirə salmaq hüququnun istifadəsinə dair gözləntiləri öhdəliklərin təsnifatına təsir göstərmir. Öhdəliyin icrasının təxirə salınması hüququ yalnız müəssisənin hesabat dövrünün sonuna hər hansı müvafiq şərtlərə riayət etdiyi halda mövcuddur. Öhdəlik hər hansı şərtin hesabat tarixində və ya ondan əvvəl pozulduğu halda qısamüddətli kimi təsnifləşdirilir (hətta kreditor bu şərtin pozulması ilə bağlı hesabat dövründən sonra rəsmi razılıq təqdim etsə belə). Kredit müqaviləsinin şərti hesabat tarixindən sonra pozularsa, kredit uzunmüddətli öhdəlik kimi təsnifləşdirilir. Bundan əlavə, dəyişikliklər müəssisənin kapitala çevirməklə ödəyə bildiyi borclar üzrə təsnifat tələblərini nəzərdə tutur. Ödəmə dedikdə öhdəliyin nağd pul, özündə iqtisadi səmərəni əks etdirən digər resurslar və ya müəssisənin öz pay alətləri ilə ödənilməsi nəzərdə tutulur. Bu dəyişiklik maliyyə alətinin tərkib hissəsi olan pay aləti kimi təsnifləşdirilən və konvertasiya oluna bilən alətlər üçün istisna nəzərdə tutur.

- ***BMS 1-ə dəyişikliklər – Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi, qüvvəyə minmə tarixinin təxirə salınması (15 iyul 2020-ci il tarixində dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Öhdəliklərin qısamüddətli və uzunmüddətli kimi təsnifləşdirilməsi ilə bağlı BMS 1-ə dəyişikliklər ilkin qüvvəyə minmə tarixi 1 yanvar 2022-ci il olmaqla, 2020-ci ilin yanvar ayında dərc edilmişdir. Lakin COVID-19 pandemiyası ilə əlaqədar olaraq təlimata edilmiş düzəlişlər nəticəsində təsnifatla bağlı yaranan dəyişikliklərin tətbiqində müəssisələrə daha çox vaxt vermək üçün qüvvəyə minmə tarixi bir il təxirə salınmışdır.
- ***BMS 16, BMS 37 və BMHS 3 ilə bağlı məhdud məzmunlu dəyişikliklər – "Təyinatlı istifadədən əvvəl əldə edilən gəlirlər", "Yükümlü müqavilələr - müqavilənin icrası ilə bağlı xərclər", "Konseptual Əsaslara İstinad" və BMHS 1, BMHS 9, BMHS 16 və BMS 41-ə dəyişikliklər – 2018-2020-ci illər üzrə BMHS-lərin İllik Təkmilləşdirilməsi (14 may 2020-ci ildə dərc olunub və 1 yanvar 2022-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 16-ya dəyişiklik müəssisələrə aktivi təyinatı üzrə istifadəyə hazırlayarkən istehsal olunan materialların satışından əldə etdikləri gəlirlərin əsas vəsaitlərin maya dəyərindən çıxılmasını qadağan edir. Belə materialların satışından əldə olunan gəlirlər istehsal xərcləri ilə birlikdə artıq mənfəət və zərərin tərkibində tanınır. Müəssisə belə materialların maya dəyərini ölçmək üçün BMS 2-ni tətbiq edəcəkdir. Sınaqdan keçirilən aktiv təyinatı

üzrə istifadəyə hələ hazır olmadığı üçün belə aktivin amortizasiyası maya dəyərinə daxil edilmir. BMHS 16-ya dəyişiklik aktivin texniki və fiziki göstəricilərini qiymətləndirərkən müəssisənin "aktivin düzgün işləməsini sınayacağı" da açıqlayır.

- Həmin aktivin maliyyə göstəriciləri bu qiymətləndirməyə aid deyil. Beləliklə, aktiv rəhbərliyin nəzərdə tutduğu kimi istismar oluna və rəhbərliyin gözlədiyi əməliyyat effektivliyi səviyyəsinə çatana qədər amortizasiya edilə bilər.
- BMS 37-yə dəyişiklik "müqavilənin icrası xərcləri" anlayışını izah edir. Dəyişiklikdə müqavilənin icrası üçün birbaşa xərclərin həmin müqavilənin icrası üzrə əlavə xərclərdən ibarət olduğu; və müqavilələrin icrası ilə birbaşa əlaqəli olan digər xərclərin bölüşdürülməsi izah edilir. Dəyişiklik, həmçinin yükümlü müqavilə üçün ayrıca ehtiyat yaradılmazdan əvvəl müəssisənin müqavilənin icrası üçün ayrılmış aktivlər üzrə deyil, müqaviləni yerinə yetirmək üçün istifadə etdiyi aktivlər üzrə yaranmış dəyərsizləşmə zərərini tanımasını açıqlayır.
- BMHS 3 müəssisələrin birləşməsi zamanı aktiv və ya öhdəliyin tərkibini müəyyənləşdirmək məqsədilə "2018-ci il Maliyyə Hesabatları üzrə Konseptual Əsaslara" istinad etmək üçün dəyişdirilmişdir. Bu dəyişiklikdən əvvəl BMHS 3-də "2001-ci il Maliyyə Hesabatları üzrə Konseptual Əsaslara" istinad edilirdi. Bundan əlavə, BMHS 3-ə öhdəliklər və şərti öhdəliklər üçün yeni istisna əlavə edilmişdir. Bu istisna bəzi öhdəliklər və şərti öhdəliklər üçün BMHS 3-ü tətbiq edən müəssisənin "2018-ci il Maliyyə Hesabatları üzrə Konseptual Əsaslar" əvəzinə BMS 37 və ya BMHŞK 21-ə istinad etməsini nəzərdə tutur. Bu yeni istisna olmasaydı müəssisə, müəssisələrin birləşməsi əməliyyatı zamanı BMS 37-yə uyğun olaraq tanımayacağı bəzi öhdəlikləri tanımalı idi. Beləliklə, satın alındıqdan dərhal sonra müəssisə belə öhdəliklərin tanınmasını dayandırmalı və özündə iqtisadi səmərəni əks etdirən gəliri tanımalı idi. Bununla yanaşı, alıcıdan satınalma tarixində BMS 37-də müəyyən edilmiş şərti aktivləri tanımasının tələb olunmadığı da izah edilmişdir.
- BMHS 9-a edilmiş dəyişiklik maliyyə öhdəliklərinin tanınmasının dayandırılması üçün "10%-lik testə" daxil edilməli olan ödənişləri izah edir. Xərclər və ya ödənişlər üçüncü tərəflərin və ya kreditorun xeyrinə həyata keçirilə bilər. Bu dəyişikliyə əsasən üçüncü tərəflərin xeyrinə həyata keçirilmiş xərclər və ya ödənişlər "10%-lik testə" daxil edilməyəcəkdir.
- BMHS 16-ya əlavə edilən Nümunə 13-ə dəyişiklik edilmişdir: aktivlərin əsaslı təmiri ilə bağlı icarəyə verən tərəfindən ödənişlər nümunəsi silinmişdir. Bu dəyişiklik icarə üzrə həvəsləndirici ödənişlərin uçotu ilə bağlı gələcəkdə hər hansı anlaşılmazlığa yol verməmək üçün edilmişdir.
- BMHS 1 törəmə müəssisə baş müəssisədən daha gec tarixdə BMHS-i tətbiq etdiyi təqdirdə istisnaya icazə verir. Törəmə müəssisə konsolidasiya məqsədləri və baş müəssisənin sözügedən törəmə müəssisəni satın aldığı müəssisələrin birləşməsi əməliyyatının nəticələrini əks etdirmək üçün hər hansı düzəlişlər edilmədiyi təqdirdə, aktiv və öhdəliklərini baş müəssisənin BMHS-ə keçid tarixinə əsasən konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilə biləcək balans dəyəri ilə ölçə bilər. BMHS 1-də nəzərdə tutulan istisnanı tətbiq edən müəssisələrə baş müəssisənin BMHS-ə keçid tarixinə əsasən baş müəssisənin əks etdirdiyi məbləğlərdən istifadə etməklə məcmu məzənnə fərqlərini qiymətləndirməyə icazə vermək üçün BMHS 1-ə dəyişiklik edilmişdir.
- BMHS 1-ə edilən bu dəyişiklik yuxarıda qeyd olunan istisnanı BMHS-i ilk dəfə qəbul edən müəssisələrin xərclərini azaltmaq üçün məcmu məzənnə fərqlərinə tətbiq edir. Bu dəyişiklik BMHS 1-də nəzərdə tutulan eyni istisnanı tətbiq edən asılı və birgə müəssisələrə də şamil ediləcəkdir.
- Müəssisələrin BMS 41-ə uyğun olaraq ədalətli dəyəri qiymətləndirərkən vergi məqsədləri üçün pul axınlarını nəzərə almaması tələbi ləğv edilmişdir. Bu dəyişiklik vergitutmadan sonrakı pul axınlarının diskontlaşdırılması ilə bağlı standartdakı tələbə uyğunluğu təmin etməlidir.

- ***BMS 1 və BMHS-in tətbiqi üzrə 2 nömrəli praktiki tövsiyələrə dəyişikliklər: Uçot siyasəti haqqında açıqlamalar (12 fevral 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 1-ə dəyişikliklər müəssisələrdən mühüm uçot siyasəti deyil, əhəmiyyətli uçot siyasəti məlumatlarının açıqlanmasını tələb edir. Bu dəyişiklik əhəmiyyətli uçot

- siyasəti məlumatlarını müəyyənləşdirir. Bundan əlavə, dəyişikliyə əsasən uçot siyasəti məlumatlarının əhəmiyyətli olması o zaman gözlənilə bilər ki, belə məlumat olmadıqda maliyyə hesabatlarının istifadəçiləri maliyyə hesabatlarındakı digər əhəmiyyətli məlumatları anlaya bilməsin. Dəyişiklik müəssisənin maliyyə hesabatları üçün əhəmiyyətli hesab oluna bilən uçot siyasəti məlumatlarına dair nümunələr təqdim edir. Bundan başqa, BMS 1-ə edilən dəyişikliyə əsasən əhəmiyyətli olmayan uçot siyasəti məlumatlarının açıqlanmasına ehtiyac olmadığı qeyd olunur. Bununla birlikdə, belə məlumatlat açıqlandığı təqdirdə əhəmiyyətli uçot siyasəti məlumatlarının açıqlanmasına mane olmamalıdır. Bu dəyişikliyi dəstəkləmək məqsədilə, uçot siyasətindəki açıqlamalara əhəmiyyətlilik konsepsiyasının tətbiqi ilə bağlı təlimat əlavə etmək üçün BMHS-in tətbiqi üzrə 2 nömrəli tövsiyələrə ("Əhəmiyyətliliklə bağlı mühakimələrin yürüdülməsi") dəyişiklik edilmişdir.
- ***BMS 8-ə dəyişikliklər: Uçot təxminlərinin müəyyən edilməsi (12 fevral 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 8-ə edilmiş dəyişiklik müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu izah edir.
- ***BMHS 16-ya dəyişiklik – COVID-19 ilə əlaqədar icarə güzəştlərinin uçotu (31 mart 2021-ci ildə dərc olunub və 1 aprel 2021-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** 2020-ci ilin may ayında BMHS 16-ya edilmiş dəyişiklik COVID-19 pandemiyası ilə əlaqədar verilmiş və 30 iyun 2021-ci il tarixində və ya daha əvvəl həyata keçirilməli olan icarə ödənişlərinin azaldılmasına gətirib çıxaran icarə güzəştlərinin icarə modifikasiyası olub-olmadığını müəyyən etmək üçün icarəyə götürənləri fakültativ praktiki istisna ilə təmin etmişdir. 31 mart 2021-ci il tarixində dərc edilmiş dəyişikliyə uyğun olaraq, praktiki istisnanın tətbiq müddəti 30 iyun 2021-ci il tarixindən 30 iyun 2022-ci il tarixinədək uzadılmışdır.
- ***BMS 12-yə dəyişiklik - Vahid əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər (7 may 2021-ci ildə dərc edilib və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 12-yə dəyişiklik icarə və istismardan çıxarma öhdəlikləri kimi əməliyyatlar üzrə təxirə salınmış vergilərin uçota alınması qaydasını izah edir. Müəyyən hallarda, müəssisələr aktiv və ya öhdəliklərin ilk dəfə uçota alınması zamanı təxirə salınmış verginin tanınması öhdəliyindən azad edilir. Əvvəllər bu istisnanın icarə və istismardan çıxarma öhdəliklərinə şamil edilib-edilməməsi ilə bağlı müəyyən qeyri-müəyyənlik olmuşdur, halbuki hər iki əməliyyat üçün aktiv və öhdəlik tanınır. Bu dəyişikliklər, istisnanın tətbiq edilmədiyini və müəssisələrin belə əməliyyatlar üzrə təxirə salınmış vergini tanımalı olduğunu aydınlaşdırır. BMS 12-yə dəyişikliklər müəssisələrdən ilkin tanınma zamanı vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlar üzrə təxirə salınmış vergini tanımağı tələb edir.

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar və şərhlər

Cəmiyyətin erkən hələ ki, qəbul etməməyə qərar verdiyi, gələcək hesabat dövrlərində qüvvəyə minəcək BMUSŞ tərəfindən buraxılmış bir sıra standartlar, standartlara düzəlişlər və şərhlər mövcuddur.

| | |
|---|---|
| BMHN 17 | Sığorta müqavilələri |
| BMHN 10 və BMUS 28 (dəyişikliklər) | Bir sərmayəçi ilə onun ortağı və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya kapital qoyuluşu |
| BMUS 1 -ə dəyişikliklər | Öhdəliklərin cari və uzunmüddətli kimi təsnifatı |
| BMHN 3 - ə dəyişikliklər | Konseptual əsaslara istinad |
| BMUS 16 – a dəyişikliklər | Əsas vəsaitlər — İstifadədən əvvəl əldə edilən gəlirlər |
| BMUS 37 -ə dəyişikliklər | Çətin müqavilələr – Müqavilənin yerinə yetirilməsinin dəyəri |
| BMHN Standartlarınn 2018-2020 dövrünə illik təkmilləşdirmələr | BMHN 1-ə düzəlişlər - Beynəlxalq Maliyyə Hesabatı Standartları, BMHN 9 Maliyyə Alətləri, BMHN 16 İcarə və BMUS 41 Kənd Təsərrüfatı standartlarının ilk dəfə qəbul edilməsi |

Rəhbərlik aşağıda qeyd olunanlar istisna olmaqla, yuxarıda sadalanan Standartların qəbul edilməsinin gələcək dövrlərdə şirkətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyini gözləmir:

BMUS 1-də dəyişikliklər - Öhdəliklərin cari və ya uzunmüddətli kimi təsnifatı

BMUS 1-də edilən dəyişikliklər hər hansı aktiv, öhdəlik, gəlir və xərclərin və ya bu maddələr haqqında açıqlanan məlumatların məbləği və ya vaxtına deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti hesabatında cari və ya uzunmüddətli kimi təqdim edilməsini təsir edir.

Dəyişikliklər öhdəliklərin cari və ya uzunmüddətli kimi təsnif edilməsinin hesabat dövrünün sonunda mövcud olan hüquqlara əsaslandığını aydınlaşdırır, təsnifatın müəssisənin ödənişini təxirə salma hüququndan istifadə edib etməyəcəyi ilə bağlı gözləntilərdən təsirlənmədiyini göstərir, hesabat dövrünün sonunda müqavilələrə əməl edildiyi təqdirdə hüquqların mövcud olduğunu izah edir və hesablaşmanın pul vəsaitləri, kapital alətləri, digər aktivlər və ya xidmətlərin qarşı tərəfə köçürülməsinə aid olduğunu aydınlaşdırmaq üçün 'hesablaşma' tərifini təqdim edir. Dəyişikliklər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün retrospektiv olaraq tətbiq olunur, erkən tətbiqinə də icazə verilir.

BMUS 16-da dəyişikliklər - Əsas vəsaitlər - İstifadədən əvvəl əldə edilən gəlirlər

Dəyişikliklər əsas vəsaitlərin dəyərindən həmin vəsaitlər istifadəyə verilməmişdən qabaq istehsal edilmiş əşyaların satışından əldə olunan gəlirlərin, yəni aktivin fəaliyyət göstərə bilməsi üçün lazım olan yerə və şəraitə gətirildikdə əldə edilən gəlirlərin çıxılmasını qadağan edir. Nəticə etibarilə, müəssisə bu cür satış gəlirlərini və əlaqədar xərcləri mənfəət və zərər hesabında tanıyır. Müəssisə bu ehtiyatların dəyərini BMUS 2 Ehtiyatlar - a uyğun ölçür. Dəyişikliklər həmçinin 'aktivin düzgün işləyib işləmədiyini yoxlamaq' mənasını da açıqlayır. Dəyişikliklər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir, erkən tətbiqinə icazə verilir.

## 5. ƏSAS VƏSAİTLƏR

| | 31 dekabr 2024-cü il | İl ərzində daxil olmuşdur | İl ərzində məxaric olmuşdur | Amortizasiya | 31 dekabr 2025-ci il |
|---|---|---|---|---|---|
| Maşın,avadanlıq,hesablama texnikası | 223,148.46 | 380,538.10 | 3,010.40 | 145,153.42 | 455522.74 |
| Nəqliyyat vasitələri | 296,183.77 | 5,402.02 | | 75,396.45 | 226189.34 |
| Digər əsas vəsaitlər | 698,225.78 | 112,907.94 | 326.65 | 77,233.41 | 733573.66 |
| **Cəmi** | **1,217,558.01** | **498,848.06** | **3,337.05** | **297,783.28** | **1,415,285.74** |

## 6. QEYRİ –MADDİ AKTİVLƏR

| | 31 dekabr 2024-cü il | İl ərzində daxil olmuşdur | İl ərzində məxaric olmuşdur | Amortizasiya | 31 dekabr 2025-ci il |
|---|---|---|---|---|---|
| Lisenziya | 134,929.45 | 194,225.31 | 10,612.80 | 166,946.93 | 151,595.03 |
| Proqram təminatı | 140,874.11 | 52,652.16 | | 38,490.05 | 155,036.22 |
| **Cəmi** | **275,803.56** | **246,877.47** | **10,612.80** | **205,436.98** | **306,631.25** |

## 7. UZUNMÜDDƏTLİ MALİYYƏ AKTİVLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Dövlət qiymətli kağızları | 2,228,361.37 | 13,222,109.65 |
| Qeyri-dövlət qiymətli kağızları | - | 6,899,483.57 |
| **Cəmi** | **2,228,361.37** | **20,121,593.22** |

## 8. İŞTİRAK PAYI METDOU İLƏ UÇOTA ALINMIŞ İNVESTİSİYALAR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 5,025,000.00 | 3,950,000.00 |
| **Cəmi** | **5,025,000.00** | **3,950,000.00** |

## 9.SAİR AKTİVLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Sair aktivlər (Müflis olumuş banklardakı vəsaitlər) | 4,141,432.95 | 4,141,432.95 |
| **Cəmi** | **4,141,432.95** | **4,141,432.95** |

## 10. DEBITOR BORCLARI

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| birbaşa sığorta üzrə | 2,432,391.74 | 1,860,238.25 |
| işçi heyəti üzrə | 9,568.40 | 10,000.00 |
| sair debitorlar | 176,660.83 | 146,523.23 |
| **Cəmi** | **2,618,620.97** | **2,016,761.48** |

## 11. QISAMÜDDƏTLİ MALİYYƏ AKTİVLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Dövlət qiymətli kağızları (Maliyyə Nazirliyi Qiymətli kağızları) | 4,743,465.65 | 3,986,243.84 |
| Qeyri-dövlət qiymətli kağızları | 14,095,395.73 | 523,765.79 |
| **Cəmi** | **18,838,861.38** | **4,510,009.63** |

## 12.SIĞORTA EHTİYATLARINDA TƏKRARSIĞORTAÇILARIN PAYI

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Həyat sığortası sahəsi üzrə : | 365,237.15 | 267,261.23 |
| **Cəmi** | **365,237.15** | **267,261.23** |

## 13. QISAMÜDDƏTLİ AKTİVLƏR

| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ:** | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Kassa | 1,273.80 | 1,746.90 |
| Hesablaşma hesabı | 9,004,789.16 | 1,934,042.80 |
| Valyuta hesabı | 396,617.28 | 232,789.45 |
| Deposit hesablar | 11,350,000.00 | 5,300,000.00 |
| Sair pul vəsaitləri | - | - |
| **Cəmi** | **20,752,680.24** | **7,468,579.15** |

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Kassa | 1,273.80 | 1,746.90 |
| "Yapı Kredi Bank Azərbaycan" QSC | 503,593.55 | 300,182.69 |
| Unibank" Kommersiya Bankı ASC | 552.90 | 2,096.34 |
| "Azərbaycan Sənaye Bankı" ASC | 9,668.60 | 1,156.86 |
| Yelo Bank ASC | 1,815.18 | - |
| Bank of Baku ASC | 910,744.40 | |
| "Accessbank" QSC | 668,652.88 | 522,773.63 |
| "Expressbank" ASC | 300,759.03 | - |

| | | |
|---|---|---|
| "Paşa Bank" ASC | 4,003,267.68 | 2,039.03 |
| "Azər-Türk Bank" ASC | 4,928,265.33 | 4,905,096.91 |
| "Azərbaycan Beynəlxalq Bankı" ASC | 2,623,824.56 | 298,367.53 |
| "Xalq" Bankı ASC | 5,947,106.48 | 1,182,591.03 |
| Rabitəbank ASC | 503,736.50 | - |
| "Bank VTB (Azərbaycan)" ASC | 1,263.63 | |
| "Turanbank" ASC | 1,485.93 | |
| Bank Respublika ASC | 1,437.43 | |
| Kapital Bank ASC | 41,166.57 | 2,466.00 |
| Nikoyl Bank ASC | - | 0.29 |
| Ziraat Bank ASC | 304,065.79 | 250,061.94 |
| **Cəmi** | **20,752,680,25** | **7,468,579.15** |

## 14. SAİR QISAMÜDDƏTLİ AKTİVLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| gələcək hesabat dövrlərinin xərcləri | 2,224.41 | 2,484.30 |
| **Cəmi** | **2,224.41** | **2,484.30** |

## 15.SAİR AKTİVLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Sair aktivlər | 272,792.74 | 272,491.10 |
| **Cəmi** | **272,792.74** | **272,491.10** |

## 16. SIĞORTA EHTİYATLARI

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Həyat sığortası sahəsi üzrə | 18,359,219.89 | 14,047,042.85 |
| **Cəmi** | **18,359,219.89** | **14,047,042.85** |

## 17. TƏKRAR SIĞORTA ƏMƏLİYYATLARI ÜZRƏ ÖHDƏLİKLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Təkrarsığortaçı üzrə | 80,784.64 | 109,625.27 |
| **Cəmi** | **80,784.64** | **109,625.27** |

## 18. KREDİTOR BORCLARI

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | 876,320.49 | 479,689.36 |
| sosial sığorta və təminat üzrə | 107,197.36 | 101,166.47 |
| digər məcburi ödənişlər üzrə | 44,342.00 | 69,961.25 |
| sair kreditorlar | 1,391,115.41 | 805,747.21 |

| Cəmi | 2,418,975.26 | 1,456,564.29 |
|---|---|---|

## 19. SAİR ÖHDƏLİKLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Sair öhdəliklər | 3,340,348.26 | 2,996,337.46 |
| **Cəmi** | **3,340,348.26** | **2,996,337.46** |

## 20. ƏSAS ƏMƏLİYYAT GƏLİRİ

| | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| Birbaşa sığorta üzrə sığorta haqları | 30,812,892.41 | 25,563,590.70 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 62,705.00 | |
| **Cəmi** | **30,875,597.41** | **25,563,590.70** |

## 21. ƏSAS ƏMƏLİYYAT XƏRCLƏRİ

| | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| Sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 2,606,710.41 | 4,553,677.57 |
| Qaytarılan sığorta haqları üzrə | 966,307.68 | 823,053.65 |
| Təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 718,949.43 | 512,131.29 |
| **Cəmi** | **4,291,967.52** | **5,588,862.51** |

## 22. İŞLƏRİN APARILMASI XƏRCLƏRİ

| | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| Əmək haqqı - cəmi | **3,888,052.88** | **4,095,270.48** |
| o cümlədən : | | |
| a) ştat işçilərinə əmək haqqı - cəmi | 3,850,402.88 | 4,054,734.46 |
| o cümlədən : | | |
| - vəzifə maaşlarına üzrə | 2,378,810.67 | 1,973,062.16 |
| - mükafat | 1,471,592.21 | 2,081,672.30 |
| - sair ödənişlər (orta qazanc üzrə) | - | - |
| b) siyahıdankənar tərkibli işçilərə əmək haqqı - cəmi | 37,650.00 | 40,536.02 |
| Sığorta vasitəçilərinə komisyon muzdlar - cəmi | 4,553,113.33 | 3,910,538.91 |
| o cümlədən : | | |
| sığorta agentlərinə | 4,489,145.71 | 3,835,089.98 |
| sığorta brokerlərinə | 63,967.62 | 75,448.93 |
| Təkrarsığortalılara hesablanmış komisyon muzdlar | - | - |
| Dövlət sosial müdafiə fonduna ayırmalar | **527,216.62** | **531,450.49** |
| Təsərrüfat xərcləri | **31,481.32** | **41,467.35** |
| Dəftərxana xərcləri | 4,981.36 | 2,403.27 |
| Ezamiyyə xərcləri - cəmi | **46,334.87** | **71,472.40** |
| o cümlədən | | |

| | | |
|---|---|---|
| ölkə daxilində | 46,334.87 | 71,472.40 |
| ölkə xaricində | - | - |
| Bank xidməti xərcləri | **94,069.92** | **90,924.00** |
| Məsləhət xidmətləri | 74,407.25 | 104,785.22 |
| Reklam işinin aparılmasına xərclər | **283,440.25** | **238,205.67** |
| Amortizasiya ayırmaları | **503,220.28** | **364,456.78** |
| Əsas vəsaitlərin təmiri üzrə xərclər | **29,110.51** | **18,979.17** |
| İşçilərin ixtisasının artırılmasına çəkilmiş xərclər | **34,722.86** | **37,551.93** |
| Nümayəndəlik xərcləri | **55,723.03** | **39,455.83** |
| Sair xərclər - cəmi | **2,057,106.36** | **1,785,134.04** |
| o cümlədən | | |
| İcarə | **403,543.20** | **391,543.20** |
| Rabitə | **54,508.65** | **53,768.38** |
| Üzvlük haqqı | **130,828.85** | **32,455.00** |
| Kommunal xərcləri | **23,678.33** | **19,711.22** |
| Audit xidməti | **12,000.00** | **11,000.00** |
| Hüquqi və s. Xidmətlər | **1,189.34** | **1,522.40** |
| Nəqliyyat vasitəsi üzrə xərclər | **76,168.38** | **69,571.96** |
| Abunə haqqı (jurnal, qəzet) | **225.00** | **32.00** |
| İşçilərin sığortası | **4,717.18** | **3,835.57** |
| İşsizlik sığortası | **19,162.72** | **20,193.51** |
| İcbari tibbi sığorta | **62,993.31** | **64,143.83** |
| Mühafizə xidməti | **63,042.35** | **61,272.34** |
| İşçilər üzrə sığorta xərcləri | **63,204.89** | **87,886.48** |
| İcbari Sığorta Bürosuna 5% ayırma | **933,087.70** | **800,376.57** |
| Administrativ xərcləri | **27,966.00** | **16,635.00** |
| Sosial layihələr | **6,083.89** | **879.83** |
| nəşriyyat xərcləri | **13,164.22** | **-** |
| sair xərclər | **161,542.35** | **150,306.75** |
| **Cəmi** | **12,182,980.84** | **11,332,095.54** |

## 22. SAİR XƏRCLƏR

| | **2025-ci il** | **2024-cü il** |
|---|---|---|
| Sair xərclər | 88,283.07 | 44,126.72 |
| **Cəmi** | **88,283.07** | **44,126.72** |

## 23. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəliklər üzrə vergi bazalarını onun fəaliyyət göstərdiyi ölkələrin Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, buda MHBS-dan fərqli ola bilər.

Təşkilat bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergi məqsədləri üçün vergidən azad olunduğundan daim vergi xərcləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir. 31 dekabr 2024-cü və 2025-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar, zaman müddətləri, eləcə də müəyyən aktivlər üzrə vergi-uçot əsaslı fərqlərdən yaranan müvvəqəti fərqlər ilə əlaqədardır.

Aşağıdakı məbləğlərin üzləşdirilməsində tətbiq edilən vergi dərəcəsi Azərbaycan Respublikasında vergi qanunvericiliyinə əsasən (müəyyən edildiyi kimi) hüquqi şəxslər tərəfindən vergiyə cəlb olunanan mənfəət üzrə ödəniləcək 20%-lik mənfəət vergisi dərəcəsidir.

| 31 dekabr 2024-cü və 31 dekabr 2025-ci il tarixlərinə qüvvədə olan vergi dərəcəsinin üzləşdirilməsi aşağıdakı kimi olmuşdur: | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət | 12,574,494.24 | 10,397,181.69 |
| Mənfəət vergisi xərci: | (2,514,898.85) | (2,079,436.34) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | **10,059,595.39** | **8,317,745.35** |

## 24. RİSKLƏR

**Maliyyə riski amilləri.**

Fəaliyyətin adi gedişində Cəmiyyət alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri nəticəsində yaranan bazar riskləri ilə üzləşir. Qiymətlərdəki dəyişikliklərdən asılı olaraq bazar qiymətlərindəki bu cür dəyişikliklər Cəmiyyətin maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Cəmiyyətin ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Cəmiyyətin maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Cəmiyyətin əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. Maliyyə riskinin vacib komponentləri likvidlik riski, xarici valyuta riski, faiz dərəcəsi riski və kredit riskidir.

Likvidlik riski. Likvidlik riski aktiv və passivlərin ödəmə müddətlərinin uzlaşmadığı hallarda ortaya çıxır. Likvidliyin idarə edilməsinə Cəmiyyətin yanaşması həm adi, həm də qeyri-adi şəraitdə Cəmiyyətin nüfuzuna qəbul edilməyən zərər və ya risk zərəri vurmamaqla, öhdəliklərin müddəti başa çatdıqda onların likvidliyini daim təmin etməkdən ibarətdir. Rəhbərlik, 31 dekabr 2025-ci il tarixində Cəmiyyətin cari ödəmə strukturunun hər hansı bir əhəmiyyətli likvidlik riskinə məruz qalmadığını hesab edir

**Kapital risklərinin idarə olunması.**

Kapital nizamnamə kapitalı və yığılmış mənfəət və ya zərərdən ibarət olub, hazırkı maliyyə hesabatlarında kapitala aid edilir. Kapitalın idarə olunmasında Cəmiyyətin məqsədi səhmdarlar üçün gəlirlərin və digər maraqlı tərəflər üçün ödənişlərin təmin edilməsi və kapital xərclərinin azaldılması məqsədilə, optimal kapital strukturunun saxlanılması üçün fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini qoruyub saxlamaqdır. Cəmiyətdən kapital ilə bağlı konkret normativ əmsallara riayət etmək tələb olunmur.

Kapital nizamnamə kapitalı və yığılmış mənfəət və ya zərərdən ibarət olub, hazırkı maliyyə hesabatlarında kapitala aid edilir.

Cəmiyyətdən kapital ilə bağlı konkret normativ əmsallara riayət etmək tələb olunmur.

**Kredit riski**

Qarşı tərəf borcunu müəyyən edilmiş ödəmə müddətində tam ödəyə bilmədikdə, Cəmiyyət kredit riskinə məruz qalır. Adətən, maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyəri Cəmiyyətin məruz qaldığı kredit riskinin maksimum miqdarını əks etdirir. Potensial kredit riskinin azaldılması üçün aktiv və öhdəliklərin əvəzləşdirilməsi imkanı böyük əhəmiyyət kəsb etmir. Cəmiyyətin kredit riski üzrə konsentrasiyalara məruz qalan maliyyə alətləri əsasən hesablarda olan vəsaitlər və debitor borclarından ibarətdir.

**Bazar riski**

Bazar riski bazardakı qiymət və məzənnələr səviyyəsində dəyişikliklərin yaxud onların mütərəddidliyinin Cəmiyyətin gəlir və ya kapitalına yaxud da onun biznes məqsədlərinin reallaşdırıması imkanlarına mənfi təsir göstərməsi riskidir.

Bazar riski faiz dərəcəsi riski kimi, valyuta riski, kredit spredləri, əmtəə qiymətləri və qiymətli kağızların qiyməti aiddir. Cəmiyyətin ölçmə üsullarında və ya üzləşdiyi riskdə yaxud da qeyd olunan risklərin idarə edildiyi və ölçüldüyü tərzdə heç bir dəyişikliklər baş verməmişdir.

Cəmiyyətin bəzi maliyyə öhdəlikləri ya dəyişkən faiz dərəcəsi daşıyır, ya da ki, kreditorun seçimi ilə faiz dərəcələrinin dəyişilə bilməsini nəzərdə tutan maddə daxil edilir. Cəmiyyət faiz dərəcəsi marjasını nəzarətdə saxlayır və bu səbəbdən əhəmiyyətli faiz dərəcəsi riskinə və ya sonrakı pul vəsaitlərinin hərəkətli riskinə məruz qalmadığını hesab edir.

**Faiz dərəcəsinə qarşı həssaslıq**

Cəmiyyət bazar mühitindəki mənfi dəyişikliklərdən irəli gələ biləcək potensial itkiləri dövri olaraq hesablamaqla ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Aşağıda göstərilən həssaslıq təhlili hesabat dövrünün sonunda həm derivativ, həm də qeyri-derivativ alətlər üzrə faiz riskinə məruzqalma əsasında müəyyən edilmişdir. Üzən faiz dərəcəsi daşıyan öhdəliklər üzrə təhlil dövrün sonunda öhdəliyin ödənilməmiş məbləğinin bütün il üzrə ödənilmədiyini hesab etməklə həyata keçirilir. Cəmiyyət daxilində faiz dərəcəsi barədə əsas idarə heyətinə məlumat verildikdə 50 baza dərəcəsində artım və ya azalmaya istinad edilir ki, bu da rəhbərliyin faiz dərəcələrində mümkün dəyişikliklərin qiymətləndirilməsini əks etdirir.

**Valyuta riski**

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklər baş verməsi səbəbindən maliyyə alətlərinin dəyəri qeyri-müəyyən olacağı ilə bağlı riskdir. Cəmiyyət üstünlük təşkil edən xarici valyuta mübadiləsi məzənnəsində dəyişikliyin baş verməsi nəticəsində onun maliyyə vəziyyəti və vəsaitlər hərəkətinin təsirə məruz qala biləcəyi halı ilə üzləşir.

**Həsaslıq təhlili üzrə məhdudiyyətlər**

Əslində, ehtimallar və digər amillər arasında qarşılıqlı əlaqə mövcuddur. O cümlədən qeyd etmək lazımdır ki, bu həssaslıqlar sabit deyil və iri yaxud xırda təsirlər bu nəticələrdən interpolyasiya və ya ekstrapolyasiya edilməlidir.

Həssaslıq təhlili Cəmiyyətin aktivlərinin və öhdəliklərinin fəal şəkildə idarə edildiyini nəzərə almır. Bundan əlavə, Cəmiyyətin maliyyə vəziyyəti bazarda dəyişikliklər baş verdikdə dəyişə bilər. Məsələ, Cəmiyyətin maliyyə riskinin idarə edilməsi strategiyası bazardakı dəyişikliklərə qarşı həssaslığın idarə edilməsini nəzərdə tutur. Bazardakı dəyişikliklər müəyyən həddi keçdikdə Cəmiyyətin rəhbərliyi bəzi investisiyaları satmaq, investisiya portfelinin strukturunu dəyişdirmək və ya müəyyən siğortalıyıcı addımlar atmaq kimi qərarlar həyata keçirə bilər. Nəticədə, aktivlər maliyyə vəziyyəti haqqında bazar dəyəri ilə qiymətləndirdikdə fərziyyələrdəki dəyişikliklər öhdəliklərə heç bir təsir göstərməyə bilər. Belə hallarda aktivlər və öhdəliklər üçün müxtəlif qiymətləndirmə bazasından istifadə edilməsi səhmdar kapitalının dəyişməsinə gətirib çıxara bilər.

Yuxarıda həssaslıq təhlillərinin digər məhdudiyyətlərinə Cəmiyyətin yalnız dəqiqliklə proqnozlaşdırılması mümkün olmayan qısamüddətli bazar dəyişikliklərinə dair mövqeyini əks etdirən potensial riski nümayiş etdirmək üçün şərti (hipotetik) bazar dəyişikliklərindən istifadə olunması və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət edəcəyi ilə bağlı təxminlər daxildir.

**Qiymət riski olan məhsullar**

Cəmiyyət ümumi və ya xüsusi bazar dəyişiklikləri nəticəsində öz məhsulları üzrə qiymət riskinə məruz qalır.

Cəmiyyət qiymət riskini bazar şəraitindəki mənfi dəyişikliklərdən irəli gələn potensial itkiləri dövrü olaraq hesablamaqla və müvafiq zərər-həddi ("stop-loss") məhdudiyyətlərini, habelə marja və girov tələblərini müəyyənləşdirib saxlamaqla idarə edir. İstifadə edilməmiş kredit öhdəlikləri halında isə, Cəmiyyət belə öhdəliklərin ümumi məbləğində bərabər həcmdə potensial zərərlə üzləşir. Lakin, ehtimal edilən məbləği bundan azdır, çünki, öhdəliklərin əksəriyyəti kredit müqavilələrində göstərilən bəzi şərtlərdən asılıdır.

**Əməliyyat riski**

Əməliyyat sistemdəki nasazlıq, əməliyyatçının səhvi, saxtakarlıq və digər xarici hadisələr nəticəsində yaranmış zərərdir. Nəzarətlər yerinə yetirilmədikdə, əməliyyat riskləri müəssisənin nüfuzuna xələl gətirə, hüquqi və ya inzibati nəticələrinə səbəb ola və ya maliyyə itkilərinə gətirib çıxara bilər. Cəmiyyət bütün əməliyyat risklərinin aradan qaldırılmasını gözləmir, lakin özünün nəzarət konsepsiyası ilə, habelə potensial risklərə nəzarət və ya onlara qarşı cavab tədbirləri görməklə bu riskləri idarə etməyə çalışır. Nəzarətlərə vəzifə bölgüsünün, sistemə çıxışın, təsdiqlənmə və üzləşdirmə prosedurlarının, heyətin təlimi və qiymətləndirmə proseslərinin səmərəli təşkili daxildir.

**25. HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR**

Hesabat tarixindən sonra hər hansı bir hadisə baş verməmişdir.

**"İATC" MMC-nin**

**Direktoru** **Şükürov Rüfət Kamil oğlu**